QARABAĞ AZƏRBAYCANDIR!

**YAP-30: Uğurların zirvəsində duran partiya!**
8

# “Bir millət, iki dövlət”:
## Güclü Liderlərin qardaşlıq zirvəsi!


3

SƏS
№ 198 (6639) 28 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik

# Ermənistan niyə sülhə TƏLƏSMƏLİDİR?


10

**“Azərbaycan mediası yeni islahatlar mərhələsinə qədəm qoyub”**


5

**“Moskva İrəvanı ağıllandırmaq üçün lazımi addımlar atacaq”**


15

# İki il öncə tarixin bu günü


4

**Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadıldı**


16

**Ermənistanda Azərbaycan irsinə məxsus abidələrin dağıdılması ilə bağlı bəyannamə qəbul edilib**



**Narkomaniya ilə mübarizədə ailənin rolu nədir?**


16

# Azərbaycan və Rusiya arasında əlaqələr dinamik inkişaf edir

## Prezident İlham Əliyev Rusiya Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.**

Görüşdə Azərbaycan və Rusiya prezidentləri arasında əldə olunmuş razılaşmalar əsasında münasibətlərimizin dinamik inkişafından və ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika sahələrində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edildi, bütün istiqamətlər üzrə irəliləyişin olduğu və ticarət dövriyyəsinin artdığı vurğulandı. Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı 10 noyabr Bəyanatının icrası ilə bağlı bölgədə nəqliyyat və iqtisadi əlaqələrin bərpası məqsədilə yaradılmış Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli işçi qrupunun fəaliyyəti üzrə məsələlər müzakirə olundu. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.



# Azərbaycan BMT ilə səmərəli əməkdaşlıq edir

## Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib

**Prezident İlham Əliyev oktyabrın 27-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib. Görüşdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar 2030-cu ilə qədər qarşıya qoyulmuş hədəflərə nail olacağına əminlik ifadə edildi və bu istiqamətdə əldə olunan nailiyyətlər xüsusi vurğulandı.**

Ölkəmizin BMT-nin Cenevrə bölməsi yanındakı strukturları və ixtisaslaşmış təşkilatları ilə əməkdaşlığı qeyd olundu. Bundan əlavə, Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü maliyyə töhfələri, həmçinin donor təşəbbüslərini dəstəkləməsi məsələləri vurğulandı. COVID-19-a qarşı mübarizə tədbirləri çərçivəsində Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Hərəkatın 80-dən çox üzv ölkəsinə göstərdiyi humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirildi.

Tatyana Valovaya BMT-nin Cenevrədəki bölməsinin rəhbərinin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan qadınlarına həsr olunmuş fotosərginin əhəmiyyətinə toxundu. Bildirildi ki, sərgi Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermiş Azərbaycan qadınlarını təşviq edir və ilk olaraq Bakıda təşkil edilən bu tədbir mütəmadi şəkildə digər ölkələrdə də keçiriləcək.

# Binəli Yıldırım:

## "Qəza anından etibarən mənimlə çox yaxından maraqlanan Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm"




Qəza anından etibarən mənimlə çox yaxından maraqlanan, dəstək verən dost və qardaş Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm. AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Binəli Yıldırım İstanbulda müalicə aldığı xəstəxanadan evə buraxılırkən mediaya müsahibəsində bildirib.

Mütəmadi olaraq sağlamlıq vəziyyəti ilə maraqlanan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana da təşəkkürünü ifadə edən Binəli Yıldırım hadisə ilə bağlı məlumat verib.

Qəzadan sonra ilkin müdaxilənin Azərbaycanda edildiyini deyən AK Parti sədrinin müavini anında helikopterlə Bakıya Mərkəzi Kliniki Xəstəxanaya çatdırıldığını, Azərbaycanda edilən ilkin müdaxilələrdən sonra isə xüsusi təyyarə ilə Türkiyəyə gətirildiyini və müalicəsinin burada davam etdirildiyini bildirib. Binəli Yıldırım keçirdiyi bu çətin dövrdə dəstək göstərən hər kəsə təşəkkürünü bildirərək müalicəsinin evdə davam etdiriləcəyini deyib.

Xatırladaq ki, ölkəmizdə səfərdə olarkən yol qəzası keçirən Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Binəli Yıldırım, millət vəkili Şamil Ayrım və mühafizəçi Oğuzhan Dəmirçi qəza yerindən operativ olaraq helikopterlə Bakıya xəstəxanaya çatdırılıb, daha sonra isə xüsusi təyyarə ilə İstanbula gətiriliblər. Onların müalicəsi İstanbulun Çam və Sakura Şəhər Xəstəxanasında davam etdirilib.

# “Azərbaycan Prezidentinin Gürcüstana səfəri qarşılıqlı münasibətlərimizin inkişafı üçün yeni səhifə açıb”

**Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana bu səfəri ölkələrimiz arasındakı qarşılıqlı münasibətlərimizin inkişafı üçün yeni səhifə açdı. Əgər biz, müzakirə olunan məsələlərə, eləcə də Azərbaycan Prezidenti və Gürcüstan Baş nazirinin bəyanatlarına diqqət yetirsək görərik ki, bizim dostluq, qardaşlıq əlaqələrimiz üçün yeni mərhələ başlayıb.**



Bu sözləri AZƏRTAC-a müsahibəsində politoloq, Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru tarixçi alim Quram Marxuliya söyləyib.

Onun sözlərinə görə, hazırda dünyada çox mürəkkəb proseslər gedir. Avropanın və bütün dünyanın diqqəti Rusiya-Ukrayna müharibəsinə cəlb olunub. Belə bir vaxtda dünyaya yeni mesajlar vermək, yeni inkişaf strategiyası təqdim etmək çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyevin Praqa görüşündə irəli sürdüyü təklifə Gürcüstan da dəstək verir. Qafqaz platformasının yaranması təkcə bu iki xalqın deyil, bütövlükdə region dövlətlərinin mənafeyinə xidmət edir.

”Onu da nəzərə almalıyıq ki, Azərbaycanın zəngin karbohidrogen ehtiyatları var. Azərbaycanın çox mühüm, irimiqyaslı enerji, nəqliyyat, logistika və digər layihələri var. Nəzərə alsaq ki, bu layihələr Gürcüstan ərazisindən keçir, bunun əhəmiyyətini görməmək mümkün deyil.

Gürcüstan hökuməti də bunu görür, qiymətləndirir və Azərbaycan Prezidentinin sülhə, sabitliyə və regionun inkişafına xidmət edən təkliflərini dəstəkləyir” - deyə politoloq vurğulayıb. Tarixçi alim hesab edir ki, ölkələrimiz arasında əbədi sülh sazişi olmalıdır. Bu cür saziş əbədi sülhü təmin edər, bizi daha parlaq gələcəyə aparar.

# "Bir millət, iki dövlət": Güclü Liderlərin qardaşlıq zirvəsi!

Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin Azərbaycan-Türkiyə qardaşlığı haqqında "bir millət, iki dövlət" kəlamı, eyni zamanda Türkiyə dövlətinin tarixi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci isə sevincimizdir" kəlamı iki qardaş ölkə arasındakı əlaqələrin möhkəm, sarsılmaz və dərin köklərə malik olmasının təcəssümüdür. Və bu gün dünyada analoqu olmayan bu qardaşlıq, sarsılmaz birlik və həmrəylik bütün dünya ölkələri arasında mövcud olan tərəfdaşlıq əlaqələrinə nümunə təşkil edir. Hazırda dünyada bu cür münasibətlərə malik olan iki dövlət tapmaq mümkün deyildir. Çünki Türkiyə dövləti Azərbaycanın yanında olduğu kimi, Azərbaycan dövləti də çətin günlərdə Türkiyənin yanında olub və bundan sonra da olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Qırx dörd günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbaycanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!



**Rəcəb Tayyib Ərdoğan:**
"Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq"

**İlham Əliyev:**
"Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb"

### Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə dostluq və əməkdaşlığı birliyinin təsdiqidir

2021-ci il iyunun 15-də qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş Azərbaycannı mədəniyyət paytaxtı Şuşaya səfəri və Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində iki qardaş dövlət liderləri arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannamənin imzalanması mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. Bəli, Müttəfiqlik haqqında Bəyanname təqdimatı hər şeyi deyir. Bir dövlətə çevrilmişik bu tarixi sənədin imzalanmasından sonra. Şuşa Bəyannaməsi qardaşlığın rəmzidir. Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycanın birgə maraqlarının qorunması üçün hər iki ölkənin bütün imkanlarından istifadə etməyə imkan verən rəsmi sənəddir. İstər Türkiyəyə qarşı, istərsə də Azərbaycana qarşı üçüncü ölkə və yaxud ölkələr tərəfindən təhdidlər və yaxud birbaşa hücum olarsa iki ölkənin bütün imkanları səfərbər ediləcək və işğalçıya qarşı birgə mübarizə aparacaqlar. Eyni zamanda, Şuşa Bəyannaməsinin 1921-ci il tarixli Qars müqaviləsindən düz 100 il sonra Şuşa şəhərində imzalanması dünyaya verilmiş mesajla yanaşı tarixi Qars müqaviləsinin davamı və müqaviləyə sadiqliyin təsdiqidir. Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi mənə daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar, indi də təkrarlanmaqdadır. Sadəcə bir fərq ilə. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Ölkəmizin başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi.

### Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Çünki bu gün Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana qətiyyətli siyasi və mənəvi dəstəyi və qazanılan zəfər regionda yeni reallıqlar yaratdı. Bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinin şahidi oldu. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir. Həmçinin, imzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Eyni zamanda, Şuşa Bəyannaməsi Ermənistana və onun havadarlarına da mesajdır. Türk dünyasının iqtisadi, siyasi və mədəni birliyi bu bəyannamə ilə daha da sarsılmaz olacaq. Türkiyə və Azərbaycan arasındakı imzalanmış Şuşa Bəyannaməsi ilə təkcə iki qardaş ölkəni deyil, bütün türk dünyasını, eləcə də Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması qətiləşdi və bu proses sürətləndiriləcək. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Regionumuz bu iki türk dövlətinin təşəbbüsləri ilə inkişaf edəcək. Bu isə o deməkdir ki, gələcəkdə bölgədə süni münaqişələrin yaradılması və ya alovlandırılması da daha mümkün olmayacaq. Şuşa Bəyannaməsi bölgədə sülh, sabitlik və firavanlıq üçün güclü bir çağırışdır. Və Şuşa Bəyannaməsi hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqlarımızın milli maraqlarını müdafiə edərək, onun mənafelərinin təmin olunması istiqamətində müstəqil xarici siyasət yürüdən iki böyük liderdir. Azərbaycanla Türkiyənin dünyada gedən proseslər haqqında mövqeləri üst-üstə düşür, bundan sonra da bu iki liderin rəhbərliyi altında iki dövlət BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birilərinə qarşılıqlı dəstək verəcəklər. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir. Ən əsası, bu Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.

### "Güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır"

Bəli, Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Və imzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Eyni zamanda, Şuşa Bəyannaməsi Ermənistana və onun havadarlarına da mesajdır. Türkiyə və Azərbaycan arasındakı imzalanmış Şuşa Bəyannaməsi ilə təkcə iki qardaş ölkəni deyil, bütün türk dünyasını, eləcə də Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması qətiləşdi və bu proses sürətləndiriləcək. Hər şeydən öncə Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Ən əsası, bu Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.

Bu gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır".Bəli, bu gün Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".Dövlət başçımızın dediyi kimi: "Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb". Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsini imzalamaqla hər zaman Azərbaycanın yanında olacağını rəsmən elan etdilər. Bu, tarixi hadisədir və xalqlarımızı qürurlandırır, gücümüzü artırır, birliyimizi möhkəmləndirir və dövlətlərimizi daha böyük uğura aparır.

Bir sözlə, ŞUŞA BƏYANNAMƏSİ: "Bir millət, iki dövlət"in müttəfiqliyini, qardaşlığını ən üst səviyyəyə qaldıran iki imzanın lider müəlliflərinin birliyidir.

***RƏFİQƏ HÜSEYNOVA***

# İki il öncə tarixin bu günü

“Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!” Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 oktyabr 2020-ci il tarixində özünün rəsmi ”Twitter” səhifəsində bildirib. Artıq müharibənin başlanmasından bir ay ötmüşdü. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyət, iradə və yüksək idarəçilik dəyərləri və rəhbərliyi ilə Azərbaycan Ordusu tarixinin ən şanlı və şərəfli qələbəsini qazanmaqda idi. 30 ilə yaxın bir müddətdə düşmən tapdağı altında olan torpaqlarımız işğaldan azad olunurdu. Artıq 4 şəhərin və onlarla kəndlərin, eləcə də bir neçə qəsəbəmizin işğadan azad olunması nəticəsində tariximiz yazılırdı. Qələbəmizi böyük sevinclə gözləyən milyonlarla insanın qəlbindəki sevinc hissi sonsuz idi. Rəşadətli əsgərlərimizin şücaəti nəticəsində cəbhədən aldığımız sevindirici xəbərləri Azərbaycan Prezidentinin şəxsən özünün xalqa müraciəti ilə çatdırılırdı. Ali Baş Komandanın hər zaman səsləndirdiyi kimi ”Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu hazırda öz torpaqları uğrunda döyüşür”. Vətən Müharibəsində Azərbaycan Ordusunun uğurları və şücaəti ilə davam edirdi.



## ORDUMUZUN SARSIDICI ZƏRBƏLƏRİ QARŞISINDA DURUŞ GƏTİRƏ BİLMƏYƏN ERMƏNİSTAN ORDUSU DİNC ƏHALİNİ HƏDƏFƏ ALMAQDA DAVAM EDİRDİ

Qələbə sevincləri ilə davam etdiyi zamanda düşmən qüvvələr ağır artilleriyadan istifadə edərək, dinc sakinlərimizin qətlinə yönəlmiş məqsədlə yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tuturdu. Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirirdi. İki il bundan əvvəl tarixin bu günü ”Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək”, - deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində etdiyi paylaşımda bildirmişdi.Şanlı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyərək, geri çəkilən Ermənistan ordusu işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə yaşayış məntəqələrimizi və dinc əhalini hədəfə almaqda davam edirdi.

## ”DÜŞMƏNİMİZ BİLMƏLİDİR Kİ, HEÇ NƏ BİZİ HAQQ YOLUNDAN DÖNMƏYƏ MƏCBUR EDƏ BİLMƏZ”

Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, bir gün sonra isə oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları oldu. Hər iki hücumlar nəticəsində 27 nəfər öldü, 70 nəfərdən artıq insan yaralandı.

2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində



72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan ”Smerç” tipli əməliyyat-taktiki təyinatlı 9M525 gəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik ”claster” tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş, 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir. 28 oktyabr tarixində Bərdədə baş vermiş hadisə ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi ”Instagram” səhifəsində paylaşım etmişdir. Paylaşımda deyilirdi: ”Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir. Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir. Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və



işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram. Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik. Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır! Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!”.

## DÜŞMƏNDƏN ALINAN HƏR BİR QİSAS, QƏLƏBƏ XƏBƏRLƏRİ XALQIMIZI QÜRURLANDIRIRDI

Onu da bildirək ki, Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-də gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tutmaqda davam edirdi. Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri düşmən tərəfindən atəşə tutulurdu. Səhər saat 07.35-dən 09.00-dək isə Ağcabədi rayonu ərazisi düşmən tərəfindən atəşə məruz qaldı.Bütün bunlara baxmayaraq, düşməndən qisas alınırdı. Rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin Bərdə rayonunun Qarayusifli kəndində törətdiyi qanlı terror cinayəti nəticəsində həlak olan şəhidlərimizin qisasını aldı. Ordumuzun bölmələrinin dəqiq zərbələri nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikasının məhv edildi. Bərdə şəhidlərinin qisasını düşməndən layiqincə alan Ordumuz həmin gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsini, eləcə də 1 ədəd ”Osa” ZRK, 3 ədəd BM-21 ”Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 ”Qiasint-Beynəlxalq” topu, 1 ədəd 120 millimetrlik minaatan, 1 ədəd ”Konkurs” tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikasını məhv edərək sıradan çıxardı.Əlbəttə ki, düşməndən alınan hər bir qisas, qələbə xəbərləri xalqımızı qürurlandırır, dövlət-xalq-ordu birliyinin sarsılmazlığı bizi Zəfərə doğru aparırdı.

***Zümrüd BAYRAMOVA***

ANALİTİK+ÖZƏL

# Soçi görüşü nə vəd edir?

*Qərb-Rusiya toqquşmasının bir ucu da Cənubi Qafqaza doğru uzanır*



**Məlum olduğu kimi, gələn həftənin bazar ertəsi günü Azərbaycan və Ermənistanın liderləri - Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında növbəti görüş gözlənilir. Görüş Rusiyanın dövlət başçısı Vladimir Putinin təşəbbüsü və vasitəçiliyi ilə keçiriləcək. Rusiya mediası və bu ölkənin müxtəlif siyasi dairələri isə açıq-aydın yazırlar ki, Soçi görüşünün məqsədi danışıqlar prosesinin Brüsselin, eləcə də ABŞ-ın ayrılıqda göstərdiyi təşəbbüslərini onların əllərindən alınmasına hesablanıb. Məhz bu xüsusda qeyd edə bilərik ki, Rusiyanın Ukraynda apardığı müharibəsi fonunda Moskvanın Cənubi Qafqaz regionunda öz mövcudluğunu qoruyub-saxlamaq cəhdləri bir sıra suallar yaradır.**

## Ortada olan fakt budur ki, Ermənistan rəhbərliyi bütün hallarda danışıqlar prosesinin uzadılmasına çalışır

Daha dəqiq desək, Qərb-Rusiya toqquşmasının bir ucu da Cənubi Qafqaza doğru uzanır. Məsələn, Brüsselin vasitəçiliyi sayəsində tərəflərin sülh sazişini imzalaması fonunda Vaşinqtonun hansısa sirli sənədinin ortaya çıxması, ardınca isə Fransa prezidenti Makronun hazırkı dövrə qədər əldə edilmiş razılaşmalara öz əsassız bəyanatları ilə kölgə salmaq cəhdləri, ATƏT-in mülki missiyasının Ermənistana gedərək orada müşahidə aparması istər-istəməz Moskvanın "mən də varam" prinsipi ilə ortadan çəkilməməsi mənzərəsini təqdim edir. Lakin ortada olan fakt budur ki, Ermənistan rəhbərliyi bütün hallarda danışıqlar prosesinin uzadılmasına çalışır və eyni zamanda, Brüssel xaric, digər oyunçuların prosesdəki qeyri-səmimi davranışları diqqət çəkir. Elə götürək Moskvanın təşəbbüslərini. İstər-istəməz belə bir sual meydana çıxır - əgər Rusiya həqiqətən də bu məsələnin birdəfəlik çözülməsində maraqlıdırsa, eləcə də Zəngəzur dəhlizinin açılmasının məhz Moskva üçün də sərfəli olduğu bəyan edilirsə, onda nəyə görə Qarabağdakı erməni separatçıları və ümumiyyətlə, qanunsuz erməni hərbi birləşmələri hələ də öz mövcudluqlarını qoruyub-saxlamaqda davam edirlər?

## Artıq Moskva dövlət TV-lərində anti-Azərbaycan xarakterli politoloqları danışdırması yerinə öz mövqeyini daha açıq formada dilə gətirməlidir!

Görünən budur ki, Rusiyanın əsas məqsədlərindən biri və bəlkə də birincisi məhz Rusiya sülhməramlı kontingentinin (RSK) orada qalmasını davam etdirməkdən ibarətdir. RSK Qarabağdadırsa, bu Rusiyanın Cənubi Qafqazda hərbi cəhətdən də mövcudluğunu sübut edir. Ancaq digər tərəfdən, daha bir fakt budur ki, Ermənistanın mövcud iqtidarı artıq açıq olaraq bəyan edir ki, onlar ölkələrində Rusiya bazalarını görmək istəmirlər, habelə rəsmi İrəvan artıq KTMT-dən çıxmaq üzərində işləyir və bunu həmin iqtidara Qərb tələb olaraq irəli sürüb. Artıq Moskva dövlət TV-lərində anti-Azərbaycan xarakterli politoloqları danışdırması yerinə öz mövqeyini daha açıq formada dilə gətirməlidir!

## Bakının tələbləri bəllidir!

Təbii ki, Azərbaycanın da bir sıra tələbləri var və bu tələblərin hər biri bilavasitə 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanatdakı bəndləri qarşı tərəfdən realizə edilməsidir. Üstəlik, Rusiya Qarabağın "statusu" məsələsinin sonrakı müddətlərə saxlanılması təklifini də irəli sürür ki, bu ümumiyyətlə, rəsmi Bakının mövqeyinə ziddir. Daha doğrusu, Prezident İlham Əliyev ümumiyyətlə, bu məsələnin həll olunduğunu və Qarabağdakı ermənilərin Azərbaycan vətəndaşı olduqlarını dəfələrlə bəyan edib. Bu baxımdan, Soçi görüşündəki müzakirələr kifayət qədər diqqətləri cəlb edir.

Ümumiyyətlə, Rusiya qalib tərəf kimi tanınan və qəbul edilən Azərbaycanın tələblərinin həyata keçirilməsi üçün İrəvana qarşı təzyiqlərini artırmalıdır. İlk növbədə vurğulanmalıdır ki, Qarabağ məsələsi artıq Azərbaycanın daxili işidir və yerdə qalan tələblər də vaxtlı-vaxtında yerinə yetirilməlidir.

***Rövşən RƏSULOV***

## "Azərbaycan mediası yeni islahatlar mərhələsinə qədəm qoyub"

Hazırda rəqəmsal media məkanı gündən-günə genişlənməkdə və ölkələrin milli informasiya mühitinə öz təsirini göstərməkdədir. Qloballaşan dünyada yüksək sürətlə baş verən informasiya mübadiləsi prosesi demək olar bütün ölkələri əhatə edir. AZƏRTAC xəbər verir ki, bunu Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin audiovizual media üzrə tənzimləyici orqanlarının birinci toplantısında çıxışı zamanı Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib.



İcraçı direktor qeyd edib ki, Prezident İlham Əliyevin Fərmanı ilə yaranmış Medianın İnkişafı Agentliyi beynəlxalq informasiya mübadiləsinə hesablanmış tədbirlər görür. "Bu il Şuşada keçirilən beynəlxalq forumda dünyanın 20-yə yaxın ölkəsindən gəlmiş xarici media nümayəndələri və ekspertlər, beynəlxalq media təşkilatlarının təmsilçiləri ilə müasir media mühitinə dair bütün aktual mövzular ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyası dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan və Türkiyənin birgə media platforması mövcuddur", - deyə Əhməd İsmayılov vurğulayıb.

## XİN: "Ermənistanın törətdiyi müharibə cinayətlərinin cəzasızlığına son qoyulmalıdır"

Ermənistanın törətdiyi müharibə cinayətlərinin cəzasızlığına son qoyulmalıdır. Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin 2020-ci il oktyabrın 27-28-də Bərdədə törədilmiş terrorla bağlı rəsmi tviter səhifəsində paylaşımında bildirilib.




"İki il əvvəl oktyabrın 27-28-də Ermənistan atəşkəsi pozaraq Bərdəni kasetli raketlərlə bombaladı. İki yaşlı qız da daxil olmaqla 27 nəfəri qətlə yetirən və 70-dən çox adamı yaralayan bu hücum 2020-ci il müharibəsində mülki əhaliyə qarşı ən ölümcül hücum idi", - deyə nazirliyin paylaşımında qeyd olunub.

# Baba Lətif, nəvə Lətif...

Qarabağ müharibəsinə ölkəmizin hər yerindən oğullar yollandı. Naxçıvanlı onlarla vətənpərvər hərbçi gənclər də Vətən torpaqlarını işğaldan azad edənlərdəndir. Naxçıvan da Qarabağ uğrunda onlarla övladını şəhid verdi. 44 gün davam edən II Qarabağ Müharibəsi zamanı iki ay Naxçıvan tamamilə blokada şəraitində yaşamaq məcburiyyətində qaldı. İki ay bu torpağın Azərbaycanla, paytaxt Bakı ilə heç bir əlaqəsi olmadı. 44 gündə isə naxçıvanlıların tək ümidi olan təyyarələr yalnız Naxçıvana şəhid gətirəndə göründü göy üzündə. Naxçıvan şəhid övladlarına qollarını açanda, onları bağrına basanda göründü təyyarələr. Bu təyyarələr əsrlərə qəhrəmanlıq tarixini yazan Naxçıvan şəhərinə, igidlər oylağı Şərura, vətənpərvərlik mücəssəməsi Ordubada, Babək qeyrətli Babəkə, qəhrəmanlar yudu Kəngərliyə, Əlincə qeyrətli Culfaya, yenilməzlik abidəsi Sədərəyə, hünəri uca dağlarının şiş zirvələrindən alan Şahbuza gətirirdi şəhidlərimizi. Vətən müharibəsinə mərd oğul kimi gedib, qəhrəman kimi qayıdan balalarımızı. Bu qədim diyarın özünün də, insanlarının da qürur duyduğu, fəxr etdiyi övladları...

Onlardan biri- Azərbaycan Ordusunun əsgəri, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Şuşa və Laçının azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə döyüşən, oktyabrın 27-də Laçın döyüşləri zamanı şəhid olan Lətif Əliyev haqqında söhbət açmaq istəyirəm.

İki il öncə Lətif Əliyevin cənazəsinin Naxçıvana, oradan isə Şərura gətirildiyi günü yaxşı xatırlayıram. 44 günün biri-noyabrın 2-i idi. Yenə də şəhidimiz gəlirdi təyyarədə. Endi birazdan Naxçıvana... Qarşıladı bu diyar öz əzizlərini, yola saldı onları şəhərlərə, qəsəbə və kəndlərə. Bu yollardan biri də Şərura gedirdi. Həmin gün 3 şəhidi vardı Şərurun. Bu ulu yurd qollarını açıb şəhidini gözləyirdi. Qəribə bir mənzərə canlanırdı gözlər önündə: yaşıllıqlar məkanı Şərurda payızın bir günün içində saçları nə yaman ağarmışdı? Bəlkə saçlarını yolub yollara tökən ağacların görüntüsü idi bu? Çılpaqlığın bəyazlığı... Şəhidini-əzizini qarşılayırdı yollar da, ağaclar da, yarpaqlar da, ətrafdakı hər şey... Hüzn içində, yox, həm də qürur içində idi Şərur.

Lətifini, Əlisini, Muradını qarşılayırdı. Bu yurdun igid övladlarını, hər biri bir ailənin göz nuru, ürək döyüntüsü olan övladlarını. Yox, tək ailələrinin deyil, onlar bütün Naxçıvanın, Azərbaycanın qüruru, canı, ürəyi, qürurudular. Birazdan torpağa tapşırıldı Vətən övladları, Şərur rayonunun şəhidlər xiyabanında. Üç şəhid-üç bayraqdır, üç yüksəlişdir, üç torpaqdır, kənddir, elobadır...

Babasının adını daşıyan Lətifin əmiləri İlqar, İntiqam, bibiləri Qiymət, Sədaqət, Səidə bu gün tək qardaşlarının balasını deyil, sanki bu gün yenidən öz atalarını da itirmişdilər. Torpağa iki qəhrəmanı, iki şəhidi gömmüşdülər. Onların hər ikisinin adı Lətif idi... Xanlıqların Lətifləri... Biri torpağın zəhmət insanı, biri torpağın şəhid övladı... Biri illərlə torpağın altını üstünə çevirib zəhmət əlləri ilə ailəsini dolandıran Lətif, digəri isə babasından torpağa məhəbbəti əxz edən nəvə Lətif, şəhid Lətif. Baba Lətif zəhmətkeş, qabarlı əlləri ilə dünyadan köçmüşdü, Xanlıqlarda bir zəhmət abidəsi ucaltmışdı özü üçün. Nəvəsini Dədəm Qorqudun torpaqla bağlı tövsiyələri ilə böyütmüşdü, torpağı əkməklə və qorumaqala bağlı tövsiyələri ilə...

Şəhid Lətif haqqında danışılanlar ürəyimi tar-mar etdi, həm də qürurlandırdı. Bu övladın 25 illik həyatı zəhmət üzərində qurulubmuş. Evlərinin dayağı, atasının sağ əli, anasının aldığı nəfəsi imiş... Özündən başqa üç qardaşından mehribanlığı, qayğıkeşliyi ilə çox fərqlənən oğul imiş... Yenicə hərbi işə düzələndən sonra ilk əmək haqqı ilə anasına paltaryuyan maşın alıb, "Ana,



neçə illərdir bu böyük ailənin pal-paltarını yumaqdan əllərinin dərisi gedib, qızın da olmayıb ki, sənə kömək etsin. Ta bəsdir, qoy bundan sonra bu maşın yusun ", - deyib. Lətif illərdən bəri atasının hələ də tikib başa çatdıra bilmədiyi evi tamamlayacağını söyləyirmiş. Hələ nə qədər də işlər görmüşdü. Hamısını bibisi Lətifə lay-lay deyə-deyə göstərdi mənə. Evlənənə qədər hamısını bitirmək arzusunda imiş...

Biz yanılırıq, Lətif o evi tikib, tamamlayıb. Lətif həyat yolu, Qarabağda şücaətli döyüşləri ilə atasının o kasıb komasının üzərində elə bir malikanə tikib ucaldıb ki, Xanlıqlarda heç kimin elə ev-eşiyi yoxdur. Bu malikanənin ən yuxarı mərtəbəsini özünə məkan seçib Lətif. Bu mərtəbənin adı Vətəndir. Seyr edir oradan Şərurunu... Oradan Qarabağ da görünür... Oradan Lətifi sevənlərin hər biri görünür. Oradan Vətən görünür. Hər kəs Azərbaycan bayraqlarını Lətif üçün dalğalandırır. "Şəhidim, səninlə qürur duyuram", - deyir. Lətif Şərurludur, Xanlıqlarlıdır- Naxçıvanlıdır, Naxçıvan şəhididir, lakin ümumilikdə Lətif bütöv Azərbaycanlıdır. Şəhid olduğu həmin gündən etibarən Lətif Azərbaycan bayrağıdır... Ağlama, Şərur, ağlama Xanlıqlar... Ağlama ata-ana, bibi, əmi, xala. Azərbaycan bayrağına bax, övladın oradan sənə baxır...

Əzizinəm igid Lətif,
Baba Lətif, nəvə Lətif.
Qarabağ dastanında
Hər söz-söhbəti Lətif.

Lətif Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən isə "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Lətif Əliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə", Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ömürlər yarımçıq qalır, arzular, istəklər, gələcək Vətən torpaqlarına gömülür, lakin bunun özü elə bir xoşbəxtlik deyilmi? Vətən yolunda kim canını, varını əsirgəyər ki?.. Bu oğullar tarixdirlər... Bu oğullar namusdurlar, ana-bacılarımızın ismətidirlər... Atasız uşaqların harayıdırlar. Minlərlə soydaşlarımızın heyfini alanlardırlar. Ən əsası isə gələcəyə aparacağımız, nəsillərə təhvil verəcəyimiz torpaqlarımızın alın açıqlığı, qürur yeridirlər.

44 gündə Naxçıvan dəfələrlə şəhidini qarşıladı, basdı bağrına, qucaqladı, lay-lay dedi... Biz bir toylarda görmüşük o qədər maşınları, o qədər siqnalları, bir də övladlarımızı son mənzilə yola salanda gördük. Bu qədər gülü-çiçəyi toylarımızda görmüşdük, bir də şəhidlər keçən yollarda gördük. Bu qədər insanı da toylarımızda görmüşdük, bir də şəhid cənazələrinin arxasında gördük. Biz bəy xonçalarını yenə də toylarda görmüşdük, məzar üstündə də gördük. Biz anaları oğul toyunda qol qaldırıb oynayanda görmüşdük, "Ay camaat, gəlin, oğlumun toyudur", - deyib cənazə qarşısında oynayanda da gördük. Bəlkə bu da yeni bir toyumuz-düyünümüzdür. Qoy olsun, yeni toyumuz-düyünümüz olsun bunlar. Lakin bir qarış torpağımız da ermənidə qalmasın. Torpaq namusdur, qoy namusumuz tapdalanmasın. Torpaq ululuqdur, qoy ululuqdan enməyək. Torpaq əvvəlimiz və axırımızdır, qoy axırımız əvvəlimizdən utanmasın. Torpaq mənəm, sənsən, bizik, hamımızıq, qoy ölək, son nəfərimizədək, lakin biz varıqsa, Vətən torpaqları da tam olsun...

Bu gün Lətifin, həm də onun kimi onlarla balamızın, hansı ki, iki il öncə oktyabrın bu günündə şəhid olublar, onların anım günüdür. Bu gün onlar yenə də həmişəki kimi anılır, məzarları ziyarət olunur. Analar, qadınlar ağlayar, bu, bəllidir. Lakin bu gün yenə də Lətifin əmilərinin gözündən axan yaş, tez-tez silib gizlətdikləri yaş həm "kişilər ağlamaz" anlamına gəlir, həm də sevinc göz yaşları anlamına. Çünki bu yaşlarda Suqovuşanı görürük, Xudafərinlə həmdərd olan Arazı görürük... Bu yaşlarda Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın, Kəlbəcərin, Laçının sevincini görürük. Onların əllərindəki bayraq bu gün həm də Qarabağ torpaqlarında dalğalanır. Ətrafı rənglərinə boyayır. Yaşıl rəng erməni tapdağından bozlaşmış yurdları yaşıl çəmənə çevirir, qırmızı Günəş olub, dağların arxasından boylanıb 30 il doğmadığı yerlərə gülümsəyir, mavi Qarabağın başı üzərindəki səmanı aydınladır... Bir anda gözlərim önündə Şərurun Şəhidlər Xiyabanı Murovun zirvəsinə qalxır. Oradan şəhidlərim bizi haraylayır, "Ağlamayın, bizimlə qürur duyun, Vətən torpaqlarını yağıdan almışıq", - deyirlər...

Ruhun şad olsun, Lətif! Rururunuz şad olsun, şəhidlər! Siz bizim qürurumuz, başımızın tacısınız. Bizi yenidən Qarabağlı edənlərsiniz. Qarabağın qara bəxtini ağ edənlərsiniz. Nə qədər ki, Azərbaycan var, sizin adınız Vətənlə, torpaqla, bu xalqın namusu, qeyrəti, iffəti ilə qoşa çəkiləcəkdir.

***Mətanət Məmmədova***

## Yasamalda şəhid ailəsi ziyarət olunub



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Yasamal rayon təşkilatının sədr müavini Elnarə Mustafayeva, YAP Yasamal rayon təşkilatının əməkdaşları və Moskva pr.67 (AzərSu ASC) ünvanı üzrə ərazi partiya təşkilatının sədri Günay Məmmədli tərəfindən 44 günlük Vətən müharibəsi şəhidi Məhərrəmov İsa Məhərrəm oğlunun ailəsi ziyarət olunub.YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev 44 günlük Vətən müharibəsində Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə minlərlə gəncin qəhrəmanlıqla döyüşdüyünü, adları Vətən tarixinə qızıl hərflərlə yazılan şəhidlərimizin daim hörmət və ehtiramla yad edildiyini, onların gələcək nəsillərə



örnək olduğunu söyləyib. Dövlətimiz və xalqımız tərəfindən hər zaman şəhidlərin əziz xatirəsinin uca tutulması və şəhid ailələrinin həmişə dövlətimizin diqqət və qayğısı ilə əhatə olunması qeyd edilib.Şəhid ailəsi onlara göstərilən diqqət və qayğıya görə, Cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən, ölümündən sonra Məhərrəmov İsa Məhərrəm oğlu "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyası - 30

## Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır

YAP Ümummilli Lider Heydər Əliyevin siyasi mirası kimi cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirən aparıcı təşkilat-dinamik qüvvədir. Partiya ötən 30 il müddət ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçib, çox mühüm, tarixi əhəmiyyətə malik olan nailiyyətlər qazanıb. Azərbaycan Prezidenti, YAP-ın sədri cənab İlham Əliyev partiyanın keçdiyi tarixi yoldan danışarkən bildirib: "Partiyanın çox böyük tarixi var, partiya ulu ulu öndər Heydər Əliyev tərəfindən çox çətin, ağır şəraitdə yaradılmışdır. Ondan sonra partiyanın bütün fəaliyyəti Azərbaycan xalqına xidmətdən ibarət olmuşdur. Bizim partiyamız müxalifətdə yaranmışdır. Yəni biz ilk fəaliyyətimizə müxalifət partiyası olaraq başlamışıq. Ancaq buna baxmayaraq, Azərbaycanın qarşısında duran bütün çətin vəzifələrin həlli işində bizim partiyamız çox fəal iştirak edib.Bu bir daha onu göstərir ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyini möhkəmləndirən və Azərbaycan dövlətçiliyini ən uca tutan partiyadır".

Partiyamızın, onun liderinin, əsas amalı ərazi bütövlüyümüzün bərpa edilməsi olmuşdur. 44-günlük vətən müharibəsindəki tarixi Zəfərimiz partiyamızın sədrinin, Müzəffər Ali Baş Komandanımızın qələbəsidir, Heydər Əliyev siyasi kursunun təntənəsidir. Yeni Azərbaycan Partiyası daim tutduğu yola, fəaliyyəti üçün seçdiyi prinsiplərə sadiq olub, Partiyamızın Sədri Prezident İlham Əliyevin fikirlərinə istinad etsək, partiyanın əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatları. Dövlət başçısı onu da qeyd edib ki,Yeni Azərbaycan Partiyası sistemimizin ən əsas sütunudur və ən böyük təsirə malik olan partiyadır: "Ölkəmizdə siyasi islahatların dərinləşməsində də Yeni Azərbaycan Partiyasının xüsusi rolu və məsuliyyəti vardır...Biz gələcəyə baxırıq. Bu gün Azərbaycanda icra edilən layihələr gələcəyə yönəlibdir. Biz elə etməliyik ki, bundan sonra da onilliklər ərzində ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin edilsin. Şübhə etmirəm ki, biz buna nail olacağıq".

Bu gün inamla deyə bilərik YAP ümumxalq partiyasıdır.Yeni Azərbaycan Partiyası sistemin monolit gücü və avanqard siyasi institutdur. Başqa sözlə,YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu qüvvəsidir. YAP eyni zamanda, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına, təkmilləşməsinə birbaşa, fundamental töhfələr verən ümumxalq partiyasıdır. Bəllidir ki, YAP müxalifət partiyası kimi yaranmışdı, həmin dövrdə özünün nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydaları və formalarını müəyyənləşdirdi. Müxalifətçiliyin nə demək olduğunu cəmiyyətə nümayiş etdirdi. YAP göstərdi ki, müxalifətçilik xalqa, dövlətə qarşı olmaq deyil, sabitlik və tərəqqiyə xidmət edən mütərəqqi ideyalarla çıxış etmək, cəmiyyətin və ölkənin inkişafı üçün milli maraqlara əsaslanan fəaliyyət göstərməkdir. Ən əsası, Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycan siyasi sistemini formalaşdırdı, siyasi mədəniyyətin təşəkkülünü təmin etdi. YAP cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirir. Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər də böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu Öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. YAP bu gün istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gəncləri öz sıralarında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai, siyasi fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə mühüm işlər görür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu çox müsbət haldır. Bu onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki,bugünkü iqtidarın apardığı yeganə düzgün siyasətdir". Mühüm məqamlardan biri budur ki, Yeni Azərbaycan Partiyası Azərbaycanda keçirilən bütün seçkilərdə parlaq qələbələr qazanıb. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, hər seçkidən-seçkiyə partiyamızın uğurlarının miqyası genişlənir və bu, seçkilərin nəticələrində özünü aydın şəkildə ifadə edir. 2003, 2008, 2013 və 2018-ci ildəki prezident seçkilərində Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin möhtəşəm qələbələr qazanması buna sübutdur. Əlbəttə ki, partiyamızın uğurları bununla bitməyib. YAP-ın əzəmətli qələbələri parlament seçkilərində də özünü göstərməkdədir. 2005, 2010, 2015 və 2020-ci illərdə keçirilən parlament seçkilərində də mütəşəkkil qaydada iştirak edən, güclü seçki kampaniyası aparan YAP-ın qələbələr qazanması xüsusi vurğulanmalıdır. Bu qələbələri şərtləndirən əsas faktor partiyanın Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə öz fəaliyyətini uğurla davam etdirməsidir. Digər mühüm amillərdən biri YAP-ın daim yeni, müasir seçki texnologiyalarını seçki kampaniyası zamanı tətbiq etməsidir.



***Arif Fərzəliyev***
***Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının sədri***

Beləliklə, Yeni Azərbaycan Partiyası ötən 30-il ərzində böyük inkişaf yolu keçib və bir çox uğurlara imza atıb.Bütün bunlar deməyə əsas verirki,ümumxalq partiyası olan YAP-ın fəaliyyəti qarşıdakı dövrdə də Azərbaycanın inkişafına xidmət edəcək. Dövlət başçısının qeyd etdiyi kimi :"Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının,onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi, bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır.Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, mən də partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var."

Yeni Azərbaycan Partiyasının gücləndirilməsi və inkişafı istiqamətində atılan addımlar davamlı xarakter daşıyır. Xüsusilə, partiyamızın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icrasına nail olunması siyasi sistemin və ictimai-siyasi münasibətlərin inkişafına, demokratik dəyərlər və ənənələrin gücləndirilməsinə, bütövlükdə isə,ölkəmizin tərəqqisinə yeni təkan və töhfə olacaq.

Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının VII qurultayının əhəmiyyətindən bəhs edərkən onu da qeyd etmək lazımdır ki, YAP daxili struktur etibarilə yeni keyfiyyət dəyişikliyinə nail oldu və siyasi təşkilat olaraq daha da gücləndi. Eyni zamanda, partiyamız ölkənin gələcəyi baxımından yeni prioritet məqsəd və vəzifələri müəyyənləşdirmiş oldu, monolit siyasi güc kimi ölkənin perspektiv inkişafında mühüm rol oynayacağını nümayiş etdirdi. Bütövlükdə həm Yeni Azərbycan Partiyasının fəaliyyətində, həm də ölkəmizin gələcək inkişafı baxımından yeni mərhələnin əsası qoyuldu. YAP-ın ayrılmaz qollarından olan Cəbrayıl rayon təşkilatında ötən illərdə daima Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursuna sadiq olub və bundan sonra da sadiq olacaq, Partiyamızın Sədri, Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız ətrafında sıx birləşərək, ümumi qələbəmiz naminə mübariz olacaqdır. Şübhə yoxdur ki, ümumxalq partiyası, Zəfərlər partiyası olan YAP cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da qarşısında duran strateji əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməklə ölkəmizin dayanıqlı və dinamik inkişafına müstəsna töhfə verəcək.



## Britaniya parlamentinin üzvləri Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib

Böyük Britaniyanın xarici işlər nazirinin müavini lord Tariq Əhməd və Lordlar Palatasının bir sıra üzvləri Azərbaycanın mövqeyinə dəstək ifadə edib. SİA bu barədə Böyük Britaniya parlamentinə istinadən məlumat verir. Belə ki, Lordlar Palatasının üzvü, Britaniya-Ermənistan parlamentlərarası fostluq qrupunun həmsədri baronessa Kerolayn Koksun Azərbaycan əleyhinə bəyanatlarına cavab olaraq digər üzvlər ya neytral, ya da Azərbaycanı dəstəkləyən açıqlamalar verib.

Lord Qurban Hüseyn qeyd edib ki, bir müddət əvvəl Ermənistanla Azərbaycan arasında baş vermiş toqquşmalar iki ölkə arasında normallaşma prosesinin və sülhün qurulmasının sürətləndirilməsinin vacibliyini ortaya çıxarır

Öz növbəsində lord Devid Evans diqqəti Azərbaycan ərazilərinin minalanması probleminə yönəldib və minaların təmizlənməsi prosesində Azərbaycana göstərdiyi maliyyə yardımına görə Britaniya hökumətinə təşəkkür edib. O xatırladıb ki, Azərbaycanda minaların partlaması nəticəsində 260 mülki şəxs zərər çəkib, bundan başqa, 3 890 azərbaycanlı itkin düşmüş hesab olunur ki, Ermənistan onlar barəsində hər hansı informasiya verməkdən imtina edir.

Baronessa Pola Uddin oktyabrın əvvəlində Praqada baş tutmuş Azərbaycan və Ermənistan liderlərinin görüşünə dəstəyini ifadə edib. O vurğulayıb ki, Ermənistanın tərəfinin fəaliyyətsizliyi ilə əlaqədar 3 890 azərbaycanlının taleyi hələ də naməlumdur.

## "Siyasi Partiyalar haqqında qanun demokratiya tariximizdə yeni hadisədir"



**"İlk dəfədir ki, siyasi partiyaların əksəriyyətinin iştirakı ilə belə mühüm kütləvi hadisə baş tutur. Məsələ ondadır ki, indiyədək heç vaxt Azərbaycanın siyasi palitrasının demək olar ki, bütün rənglərinin qatıldılıdığı bir formatda belə kütləvi müzakirə olmamışdı. Hazırki siyasi sistemimiz ötən əsrin 90-cı illərində əsası qoyulan və formalaşan siyasi sitemdir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib.**

Onun sözlərinə görə, elə siyasi partiyalar haqqında mövcud qanunumuz da 1992-ci ildə qəbul edilmiş qanundur: "İndiki mərhələdə isə kordinal şəkildə dəyişən şərtlər var. Bu istər siyasi sistemimizi təyin edən əsas faktorlar, istərsə də demokratiyamızın inkişafının hazırki vəziyyəti ilə bağlı olan faktorlarla əlaqədəradır. Məsələn müstəqilliyimizin ilk illərində siyasi mübarizə, siyasi rəqabət və siyasi münasibətlər sistemimiz də ərazi bütövlüyümüz və keçmiş Qarabağ problemi kontekstində formalaşırdı. Bu faktorlar daima sosial-siyasi münasibətlərimizi təzyiq altında saxlayır, demokratik inkişafımızın obyektiv əsaslarda formalaşmasına təsir edirdi. Hazırda isə həm ölkəmizdə həyata keçirilən dərin siyasi islahatlar, həm də Vətən müharibəsindən sonra əldə etdiyimiz tarixi qələbəmiz kontekstində siyasi münasibətlər sitemimizin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması zərurəti yaranıb. Bu isə şübhəsiz ki, yeni hüquqi əsaslarda daha demokratik qanunlarla tənzimlənməlidir. Müzakirələr zamanı bəlli oldu ki, qanun layihəsinə 47 siyasi partiyadan 250-dən çox təklif daxil olub. Eyni zamanda 11 parlament partiyasının təşəbbüsü və Milli Məclis sədrinin dəstəyi ilə yeni qanun layihəsi ərsəyə gəlib. Bu isə o deməkdir ki, bu qanun layihəsinin həmmüəlliflərı elə 47 siyasi partiya yaxud onların təmsilçiləridir. Ona görə də siyasi partiyalar haqqında qanun layihəsi növbəti müzakirələrdə daha da cilanlanmaqla, təkmilləşməklə siyasi sistemimizin inkişaf etməsinə səbəb olacaq bir qanuna çevriləcək. Bu isə bütün siyasi sistemimizin uğuru kimi qiymətləndirilməlidir".

***Abutel İlhamqızı***

# Yeni Azərbaycan Partiyası - 30

# YAP-30: Uğurların zirvəsində duran partiya!

## Respublikamızın hər yerində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib

### Nəsimi

Oktyabrın 27-də Bakı Slavyan Universitetində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliye-







vin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsini dərin hörmət və ehtiramla anıblar.

Sonra Universitetdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin şəkillərindən ibarət fotostendə baxış keçirilib və önünə gül dəstələri düzülüb.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ölkə ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb: "Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın xilasının, tərəqqi yoluna çıxmasının əsası qoyuldu. Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 30 illik şərəfli yol ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, müasir dövrdə beynəlxalq aləmdə tanınan nüfuzlu partiyalar sırasında olması dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətinin nəticəsidir."

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır: "Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilatlanma ilə avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin, etimadının dayandığını bir daha sübut edir."

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev xalqın ümummilli lider Heydər Əliyevə olan inamının tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdiyini bildirib. Onun sözlərinə görə, Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı: "Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 7 ay sonra siyasi hakimiyyətə gələrək son 30 ildə daxil olduğu bütün seçkiləri qalibiyyətlə başa vurub.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov ölkəmizin belə yüksək inkişaf tempi ilə irəliləməsində hakim Yeni Azərbaycan Partiyasının rolundan danışıb. Vurğulayıb ki, xalqın partiyası kimi tanınan Yeni Azərbaycan Partiyası artıq 30 ildir ki, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir, xalqın sevgisini və dəstəyini qazanır, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirir.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov çıxışında qeyd edib ki, son 30 ildə partiya məfkurəsinin əsasını müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri təşkil edib. Bildirib ki, Heydər Əliyev dühasının Yeni Azərbaycan Partiyasının proqramında ifadəsini tapmış dövlətçilik strategiyası son 30 ildə bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənib.

Daha sonra çıxış edən partiya üzvü, şəhid atası Ceyhun Kərimli və Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Nəsimi rayon şöbəsinin sədri Azər Quliyev Yeni Azərbaycan Partiyasının bundan sonra da mühüm nailiyyətlərə imza atacağına əminliklərini ifadə edib, onlara göstərilən diqqət və qayğıya görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda "91"-lərin bir qrup nümayəndəsinə və ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunub.

### Nizami

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tə-







rəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının gənc fəallarının Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir.

Oktyabrın 27-də YAP Nizami rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Partiya fəalları Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.

### Hacıqabul

Oktyabrın 27-də Yeni Azərbaycan Partiyası (YAP) Hacıqabul rayon təşkilatı partiyanın təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirib.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini və rayon Şəhidlər xiyabanını ziyarət ediblər. Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP Hacıqabul rayon təşkilatının sədri Elnur Əmirəslanov Yeni Azərbaycan Partiyasının 30 il ərzində olduqca şərəfli və məsuliyyətli yol qət etdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırıb. 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransının tarixi əhəmiyyətə malik olduğunu bildirib. Ümummilli Lider Heydər Əliyevin zəngin irsi əsasında və Prezident, partiyanın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrətinin, beynəlxalq nüfuzunun daha da artacağına əminlik ifadə olunub.

Milli Məclisin deputatı Malik Həsənov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan YAP zəngin və şərəfli inkişaf yolu keçib. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.







Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov çıxışında bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, partiyanın ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməsindən, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfələrini verməsindən, qazanılan parlaq Qələbədən ətraflı bəhs edib.

Partiya veteranı Şükür Məmmədov, ərazi partiya təşkilat sədri Zərəngiz Abasova və partiya fəalı Xalid Rəcəbli çıxışlarında Yeni Azərbaycan Partiyasının təsis olunduğu gündən xalqın inam və etimadını ən yüksək səviyyədə doğrultduğunu bildiriblər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunub.

## Göyçay

Oktyabrın 27-də Göyçay rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Göyçay Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.

Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov bildirib ki, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərdiyi 30- ildə bütün qüvvə və bacarığını xalqa xidmətə yönəldərək, əhəmiyyətli uğurlara imza atıb: "Partiyanın yaradıcısı ümummilli lider Heydər Əliyevin müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda gərgin fəaliyyəti Azərbaycanın bu gününü və gələcək taleyini müəyyən edib".

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Yeni Azərbaycan Partiyasının zərurətdən yaranmış avanqard qüvvə olduğunu bildirib. O dövrdə baş verən hadisələrdən, partiyanın yaranmasından və hazırda xalqın öz liderinə olan inamından bəhs edib. O, Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini söyləyib.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Yeni Azərbaycan Partiya-








sının yaranma tarixindən, keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını qeyd edən M.Qurbanlı bu uğurların zirvəsində tarixi Zəfərimizin dayandığını vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov çıxış edərək ümummilli lider Heydər Əliyevin siyasi kursunu müasir dövrümüzün tələbləri əsasında davam etdirən Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin Azərbaycana Zəfər bəxş etmiş Müzəffər Ali Baş Komandan olduğunu bildirib. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası ötən 30 ildə uğurla inkişaf edib, Azərbaycana möhtəşəm nailiyyətlər qazandırıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının ilk sədri, partiya veteranı Nazim İsmayılov, 44 günlük Vətən müharibəsinin iştirakçısı, Yeni Arx kənd tam orta məktəbin direktoru Ayaz Babayev çıxış ediblər.

Tədbirin sonunda Göyçay rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

## Laçın

Oktyabrın 27-də Yeni Azərbaycan Partiyası (YAP) Laçın rayon təşkilatı tərəfindən partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə Laçın Rayon İcra Hakimiyyəti binasının önündə xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü ziyarət olunub və önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib.

Sonra Taxta körpü qəsəbəsində laçınlı şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədi ilə inşa olunan kompleks ziyarət olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub.

Tədbirdə YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən ötən 30 il ərzində zəngin siyasi yol keçərək, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsində və inkişafında böyük tarixi rol oynayıb: "Ötən illərdə olduğu kimi bu gün də öz proqramında müstəqil dövlətçilik, azərbaycançılıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsiplərini rəhbər tutan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə rolu və nüfuzu durmadan artır".

YAP İdarə Heyətinin üzvü Asif Əsgərli çıxışında deyib ki, ulu öndər Heydər Əliyevin yaratdığı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin daha da gücləndirdiyi ordumuz cəmi 44 gün ərzində Ermənistan silahlı birləşmələrini döyüş meydanında darmadağın etdi. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edildi, ərazi bütövlüyümüz bərpa olundu, zəfər qazandıq.







Milli Məclisin deputatı Mahir Abbaszadə diqqətə çatdırıb ki, artıq işğaldan azad olunmuş bütün şəhərlərin baş planı hazırlanıb və təsdiqlənib: "Füzuli rayonunda Qarabağın qapısı olan beynəlxalq hava limanı 8 aya tikilib istismara verildi, bu günlərdə Zəngilan Beynəlxalq aeroportunun açılışı gerçəkləşdirildi. Zəngilanda ağıllı kənd layihəsinin ilkin mərhələsi yekunlaşdırılıb, kənd sakinləri artıq öz doğma kəndlərində firavan yaşayırlar".

Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli isə çıxışında söyləyib ki, Prezident İlham Əliyevin Laçın şəhərində Azərbaycan bayrağını ucaltması laçınlıların hər birini qürurlandırdı: "Biz laçınlılar hər zaman olduğu kimi, bu gün də Prezident İlham Əliyevin ətrafında sıx birləşmişik, ölkəmizdə gedən çoxsahəli islahatların iştirakçısı olduğumuza görə qürur duyuruq".

Tədbirdə, həmçinin YAP Laçın rayon təşkilatının veteran üzvü Səyyaf Məmiyev, 51 saylı ərazi partiya təşkilatının sədri Aytac Abbasova, Vətən müharibəsi qazisi Fəxri Əliyev partiyanın bundan sonra da ardıcıl uğurlar qazanacağına əminliklərini bildiriblər. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərmanla təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

# Ermənistan niyə sülhə TƏLƏSMƏLİDİR?

**Qarabağdan əllərinin üzüldüyünü dərk etməyə başlayan ermənilər indi batmaqda olan gəmi timsalında Ermənistanın xilasına çalışırlar. Bunun üçün gah Rusiyaya, gah da Qərbə tərəf yön alan haylar artıq hər iki tərəfin onları xilas edə bilməyəcəyi qənaətinə gəlməkdədirlər. Onlara verilən vədlərin hər birinin söz yığınından başqa bir şey olmadığı ortaya çıxdıqca dərk edirlər ki, Ermənistan üçün Azərbaycanla sülh sazişini imzalamaqdan doğru addım ola bilməz.**





Həqiqətən də Rusiyanın, Avropanın, eləcə də Amerikanın yağlı vədlərindən və bu vədlərin boş sözdən başqa bir şey olmadığını hər dəfə görməkdən bezən, boğaza yığılan Ermənistan cəmiyyəti gec-tez doğru, düzgün qənaətə gəlməlidir. Başa düşməlidir ki, Ermənistanı xilas edəcək yeganə yol, iqtisadi inkişafa nail olmaqdır. Erməni cəmiyyəti dərk etməlidir ki, məhz iqtisadi inkişaf sayəsində bundan sonra ağalarından asılılığını aradan qaldıra, ən azından minimuma endirə bilərlər, hansıki bu məqam onlara indən belə müstəqil yaşamaq üçün şərait, imkan yarada bilər. Belə bir şərait, imkan isə onların kimlərsə tərəfindən idarə olunmalarının, kimlərinsə oyunlarında atətə çevrilmələrinin, acınacaqlı hallarla, hətta faciələrlə üz-üzə gəlmələrinin, məhvə sürüklənmələrinin qarşısının alınması deməkdir.

Hələ də erməni cəmiyyətində Rusiyadan ayrılmaq barədə spekulyasiyalar var. Maraqlıdır, Ermənistan müstəqil, suveren dövlət olduğunu bəyan etdiyi halda, Rusiyadan ayrılmaq barədə bu ölkədə söz-söhbət niyə olmalıdır? Axı bu ölkə yalan-doğru müstəqil dövlət, suveren dövlət olduğunu çoxdan bəyan etmişdi. Deməli, işğalçı ölkə ictimaiyyəti yaxşı bilir, hətta etiraf da edir ki, hələ də Ermənistan hansısa dövlətlərə, xüsusən Rusiyaya "bitişikdi" və buna görə də bu ölkə ictimaiyyəti hələ də ayrılmaq, müstəqil olmaq arzusundadır. Arzu kimi yaxşı arzudur, amma bunun üçün xam xəyallardan əl çəkmək, utopik fikirlərə, arzulara düşməmək, yaratdıqları qondarma mif naminə işğalçılıq siyasətinə son qoymaq, sonra da iqtisadi inkişaf barədə düşünmək, bu istiqamətdə irəliləmək tələb olunur. Belə bir irəliləyiş isə, əlbəttə ki, iqtisadi münasibətlər yaratmaqdan, normal qonşuluq siyasəti həyata keçirməkdən keçir və deməli, Ermənistan Azərbaycanla bağlayacağı sülhə özü hamıdan çox tələsməlidir.

İndi erməni cəmiyyəti görür ki, onlar fərqində olmadan bir çox hadisələr baş verir, erməni xalqına xəbər vermədən belə onların yerinə Qərb, Avropa qərarlar verir, bu səmiyyət də ordan-bura, burdan-ora sürüklənir. Nəticədə də həmin cəmiyyət özü əziyyət çəkir. ABŞ timsalında hansısa bir ölkənin xoşuna gəlsin deyə yalançı demokratiya oyunları oynayan və bundan bezən, bu oyunllara görə hər şeydən məhrum olan və hələ də qarnı ac olan ermənilər fakt, reallıqlar qarşısındadırlar. Bunlar Azərbaycanın yaratdığı reallıqlardır ki, bunu bütün dünya qəbul etdiyi halda, ermənilərin özlərini görməməzliyə, bilməməzliyə vurması nə mümkün deyil, nə də hansısa reallığı dəyişən deyil.

Qərbin könlünü oxşamaq üçün olan demokratiya oyunu Ermənistana heç nə vermədi. Əksinə, bu ölkəni xaosa sürükləməklə, məhvə apardı, səfil gününə saldı. "Keçəl dərman bilsə öz başına sürtər", zərb məsəlində deyildiyi kimi, dünyaya "demokratiya dərsi" keçmək istəyən ABŞ hansı demokratiyadan dəm vurur və qaradərililərin bu ölkədə hələ də natamam hüquqlara malik olması demokratiyadırmı? Yaxud, Avropa öz şəhərlərində küçələrə çıxan nümayişçiləri rezin güllələrlə, gözyaşardıcı kimyəvi qazla, itlərin köməyi ilə dağılışdırırsa, sözlərinə məhəl qoymursa, söz, ifadə, insan azadlığı bərədə hansı üzlə danışır? Əgər Amerika boyda fövqəl dövlətə demokratiya, Avropa boyda Qoca Qitəyə söz, ifadə azadlığı bir şey vermədisə, bunlar alət olaraq istifadə olundusa, Ermənistan kimi bir cırtdan dövlətə nə verə bilər? Kimlərinsə, hansısa dövlətlərinsə alətinə çevrilməkdən başqa heç nə. Əbəs yerə deyil ki, indi erməni cəmiyyətində, özü də açıq-aşkar şəkildə, "indiki hakimiyyət Azərbaycanla razılaşmağa hazırlaşır", spekulyasiyaları dolaşır, çünki bu cəmiyyət başa düşür ki, hakimiyyətinin də bundan başqa doğru çıxış yolu qalmayıb. "Bakı ilə İrəvan arasında imkan daxilində daha tez sülh müqaviləsi imzalamaq lazımdır", deyən Ermənistan Milli Məclisinin spikeri Alen Simonyanın da bu qənaətdə olması səbəbsiz deyil. Özü də belə bir səlahiyyətlinin bu şəkildə ifadə işlətməsi, belə bir etiraf etməsi əvvla, sıradan bir ifadə sayılmır, bütövlükdə erməni cəmiyyəti üçün hətta bir mesaj hesab olunur, digər tərəfdən də Ermənistanın sülhə tələsməli olduğunun bu ölkə hakimiyyəti tərəfindən dərk olunması kimi başa düşülür.

Ermənistanın Milli Məclisinin spikeri ilin sonuna qədər müqavilə imzalamağın vacibliyindən danışarkən bunun, tərəflər arasında razılaşmanın nəticəsi olmasından əlavə, Ermənistan üçün son müddət olduğunu da diqqətə çatdırır. Yəni, erməni spiker hakimiyyətin sülh müqaviləsinə əslində tələsdiyini gizlətmir. Onu da gizlətmir ki, xarici müdaxilələrə, müqavimətə, təzyiqlərə belə baxmayaraq ölkəsinin baş naziri Nikol Paşinyan da bu niyyətdə, sülh müqaviləsinin ilin sonunadək imzalamaq niyyətindədir. Əslində, bir ölkənin spikerinin, "sülh müqaviləsini imkan daxilində daha tez imzalamaq lazımdır", deməsi, sülh müqaviləsinin imzalanmasına razılıq ifadə etməsi hakimiyyətdən icazəsiz və xəlvət ola bilməz və bəlli olur ki, həqiqətən də başda elə erməni baş nazir olmaqla, Ermənistan hakimiyyəti artıq başqa çıxış yolu görmür.

Artıq 44 günlük müharibənin başa çatmasından keçən son iki il ərzində Rusiya ermənilərin, Ermənistanın təhlükəsizliyini təmin etmək kimi bir öhdəlikdən imtina etdiyini diplomatik jestlərlə haylara başa salıb. İndi erməni cəmiyyətinin bir hissəsi bunu istəyin olmaması, digər hissəsi də imkansızlığın olmaması ilə izah edir, yaxud təskinlik tapır. Amma hər bir halda ermənilərin ruslardan əllərini üzdükləri açıq-aydın şəkildə görünür. Bunu görmək üçün xüsusi "istedad" da tələb olunmur, çünki hayların rusları, Rusiya dövlətini onları müdafiə etməmələrinə görə tənqid atəşinə tutması gizlin şəkildə aparılmır. Hətta ermənilərin əksəriyyəti Rusiyadan birdəfəlik "aralanmaq" arzularını də açıq-aşkar bildirirlər. Düzdür, erməni cəmiyyətinin, Ermənistanın məhz Rusiyanı nəyəsə görə qınamağa mənəvi haqqı yoxdur, ola da bilməz, çünki buna əsas da ola bilməz, amma bu məsələ müzakirə mövzusu deyil. Müzakirə mövzusu odur ki, Ermənistan artıq Kremlin hər şeyin nəzarətdə olduğunu sadəcə göstərməyə çalışdığı, heç bir kömək etməyəcəyi qənaətindədir. Həm də erməni cəmiyyəti də, Ermənistan hakimiyyəti də o qənaətdədir ki, prosesi artıq Rusiya idarə etmir, edə də bilmir. Hətta ermənilər hesab edirlər ki, ruslar özləri böyük bəla içərisindədir və onlardan ardımı, dəstəyi ummağa belə dəyməz.

İranın köməyi, dəstəyi barədə bir müddət ağız dolusu, pafosla danışan ermənilər belə gördülər ki, rəsmi Moskva da Tehran da Ermənistanı özünün-özünü saldığı quyunun dibindən çıxarması barədə fikirlər də xam xəyallardır. İranın özündə də, bu ölkənin çoxlu sayda şəhərlərində də davam edən mitinqləri müşahidə edənlər, həmin ölkənin hakimiyyətinin etirazları dayandıra bilmədiyi fikrindədirlər. O fikirdədirlər ki, İran özü məhz öz ölkəsində baş verənlərin qarşısını ala bilmir. Buna gücü də çatmadığı fikrində olanlar da az deyil. Deməli, iranlıların da nağıllarının mənasız olduğuna haylar özləri ilk növbədə inanmırlar. Moskvada isə Kutuzovski prospektində Vahid Rusiya sədrinin mərkəzi qəbul otağını yandırıblar. Gecə saat üç radələrində naməlum şəxsin binanın pəncərəsindən "Molotov kokteyli" ataraq cinayət yerindən qaçaraq aradan çıxmasını ermənilər Rusiyanın tamamilə çarəsiz, imkansız vəziyyətdə olması kimi xarakterizə edirlər. Onlar belə bir qənaətdədirlər ki, Rusiya və İrana sadəcə olaraq, ümid bəslənilməsi axmaqlıqdır. Elə erməni baş nazirin, Ermənistan hakimiyyətinin sülh müqaviləsi bağlamağa tələsən kimi öz xalqının gözündə görünməsi bütün bunlara görədir.

Nə etməlidir bu halda erməni cəmiyyəti? Bu qədər görüşlərin, özü də Azərbaycanın diplomatik müstəvidə qələbələrilə dölu görüşlərin fonunda çıxış yolu nə ola bilər? Bir halda ki, bütün qapılar ermənilər üçün ancaq ilğım göstərib və hələ də göstərməkdə davam edir, deməli, Ermənistan artıq Azərbaycanla sülhə tələsməlidir.

***İnam Hacıyev***

# Zəfər salnaməsi Vətən, torpaq, yurd sevgisi ilə düşüncələrdə iz saldı



*Tural Qasımlı*
*YAP Şamaxı rayon təşkilatının sədri*



Mövcud fakt və reallıq ondan ibarətdir ki, müasir və müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Ömrünü xalqına bağışlayan dahi liderin çoxşaxəli fəaliyyətinin öncül proqramı isə, şübhəsiz ki, üçrəngli şanlı bayrağımızın bütöv Azərbaycanda dalğalanması amalı idi. Mövzunun aktuallığını və əhəmiyyətini ön plana çəkən müdrik strateq böyük uzaqgörənliklə deyib: "Torpaqlarımızın azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil Azərbaycanın xoşbəxt günü gəlib çatacaqdır". Qürurlu haldır ki, bu gün məhz həmin tarixi anlara canlı şahidlik edirik. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ümummilli liderin yolunu bütün istiqamətlər üzrə uğurla davam etdirərək ölkəmizi qüdrətli, qalib dövlətə çevirib. Möhkəm təməllər üzərində inamla inkişaf edən Azərbaycan ildən-ilə gücləndi, beynəlxalq aləmdə söz və nüfuz sahibinə çevrildi, eyni zamanda qüdrətli ordu yaratmağa müvəffəq oldu. Təsadüfi deyil ki, sosial-iqtisadi güc, rəşadətli ordumuz mənfur düşməni əzəli torpaqlarımızdan qovaraq çıxardı, şanlı bayrağımız Vətən torpaqlarında, Qarabağın incisi sayılan Şuşada yenidən dalğalanmağa başladı.

2020-ci ilin sentyabrın 27-də başlanan haqq savaşımızda zəfər çalan rəşadətli Azərbaycan Ordusu ölkəmizin maraqlarına uyğun olan yeni siyasi reallıqlar yaradıb. 30 ilə yaxın müddətdə işğala məruz qalan torpaqlarımız məhz ordumuzun nümayiş etdirdiyi peşəkarlıq və qəhrəmanlıqlar hesabına azad edildi. Vətən müharibəsində əldə edilən bu parlaq zəfər Azərbaycan dövlətinin və xalqının mübarizə əzmini, bütün sferalar üzrə qadir olduğu qüdrətini bir daha nümayiş etdirdi. Uzun müddətdir ki, havadarlarının davamlı dəstəyi ilə torpaqlarımızı işğalda saxlayan, beynəlxalq hüququn bütün norma və prinsiplərini heçə sayan, özlərini əzəli torplaqlarımızda aborigen xalq kimi göstərməyə çalışan ermənilər və "yenilməz ordusu" 44 gün ərzində məhv edildi. İşğalçı ölkənin ordusu haqqında yaradılan mif və nağılların təbliğatı o qədər əhatəli idi ki, müharibədən sonra belə Ermənistan əhalisi uzun müddət acı reallıqlarla barışa bilmirdilər.

44 günlük savaş təkcə ordumuzun arsenalında yer alan çoxsaylı müasir hərbi texnika və avadanlığın real döyüş şəraitində uğurlu nümayişi ilə yadda qalmadı. Bu müharibə eyni zamanda hərbi qulluqçularımızın, bütövlükdə xalqımızın Vətən, torpaq, yurd sevgisi ilə düşüncələrdə iz saldı. Xalq-lider-ordu vəhdəti qürur yerimizi olan ordunun əsas güc mənbəyinə çevrildi. Əminlik demək olar ki, Vətən sevgisi, milli həmrəylik sayəsində düşmən döyüş meydanından texnikalarını qoyaraq qaçmağa, aman diləməyə məcbur oldu. Müharibənin ilk günlərindən ölkə Prezidentinin rəhbərliyi ilə reallaşdırılan əməliyyatlar, düzgün döyüş strategiyası bir sıra mühüm yüksəkliklərin və digər ərazilərin geri qaytarılması ilə nəticələndi.Hər zaman olduğu kimi, öz çirkin niyyət və xislətindən vaz keçməyən Ermənistan ordumuzun qarşısında tab gətirə bilməyəcəyini anlayaraq bütün beynəlxalq konvensiyalara zidd olaraq "S-300", "Smerç", "İskəndər" kimi böyük dağıdıcı gücə malik raketlərlə döyüş zonasından xeyli aralıda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Tərtər, Qəbələ, Yevlax və digər dinc yaşayış məntəqələrini atəşə tutdu. Nəticə etibarilə mülki əhali arasında xeyli tələfat olmuş, müxtəlif təyinatlı müəssisələr, obyektlər dağıdılmışdır. Şübhəsiz ki, bu addımlar işğalçı ölkənin əsl simasını göstərməklə bərabər, həm də Azərbaycanı provakasiyaya çəkmək cəhdi idi. Düşmən lakin bir şeyi unutmuşdu ki, Azərbaycan ordusu düzgün və düşünülmüş döyüş strategiyasına uyğun olaraq müharibə aparır və hüququn bütün normaları ön planda saxlanılır. Beləliklə, məğrur Azərbaycan əsgəri mülki şəxslərə qarşı törədilən qanunsuz hərbi cinayətlərin qisasını düşməndən döyüş meydanında aldı. Artıq Ordumuzun güclü həmləri qarşısında duruş gətirə bilməyən, məğlubiyyətin bir addımlığında olduğunu dərk edən düşmən əsgərləri qısa müddətdə döyüş mövqelərini tərk edərək qaçmağa başladılar. 44 günlük zaman kəsiyində atəşkəsə dəfələrlə məhəl qoymayan Ermənistanın hərbi-siyasi rəhbərliyi məğlubiyyətdən savayı heç nəyə nail ola bilmədi.

Vətən müharibəsinin diqqətçəkən xüsusi yönlərindən biri də bütün istiqamətlər üzrə məlumatlılıq səviyyəsinin artırılması, informasiyanın tam, dəqiq və dolğun ictimaiyyətə çatdırması, informasiya cəbhəsinin düzgün qurulması idi. Dövlət başçısı cənab İlham Əliyev 44 gün ərzində Azərbaycanın haqlı mövqeyini sistemli şəkildə daha geniş auditoriyaya çatdırılması məqsədilə çoxsaylı xarici kütləvi informasiya vasitələrinə müsahibələr verib. Əlavə olaraq bununla da erməni lobbisinin yalan təbliğat maşını darmadağın edildi.Ölkə Prezidentinin təbirincə desək, bir addım belə geriyə addım atmayan ordumuz qədim tarixə və bənzərsiz mədəniyyətə malik olan Şuşanı azad etməklə müharibənin talehini həll etdi. Strateji baxımdan alınmaz yüksəklikdə yerləşən Şuşa şəhərinin Azərbaycan əsgərinin misligörünməmiş qəhrəmanlığı, habelə döyüş planına uyğun olaraq azad edilməsi isə hələ də nəinki, erməniləri, hətta dünyanın hərbi ekspertlərini belə heyrətləndirməkdədir.Təbii ki, müharibə şəhidsiz, şəhidsizsə Vətən olmur. Öz canı, qanı bahasına ölümsüzlük zirvəsinə ucalanların əziz xatirəsi qədirbilən xalqımız tərəfindən hər zaman ehtiramla anılır, şəhid ailələri, qazilər, həmçinin müharibə iştirakçıları dövlətimiz tərəfindən ali diqqət və davamlı qayğı ilə əhatə olunurlar.Xüsusilə qeyd edilməldir ki, 10 dekabr 2020-ci ildə keçirilən möhtəşəm Zəfər paradı isə ümumilikdə 44 günlük Vətən müharibəsinin məntiqi yekunu idi və Azərbaycanın sahib olduğu hərbi gücü, tarixi Qələbəni dosta da, düşmənə də açıq bəyan etdi. Artıq Zəfər tariximizin ikinci ildönümü tamam olur. Azərbaycan xalqı haqlı olaraq bu günləri böyük qürur və iftixarla qeyd edir! Eşq olsun müqəddəs, parlaq Qələbəni bizə yaşadan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna.

# "Europian Times" media resursu Xocalı qətliamı ilə bağlı məqalə ilə çıxış edib




**Avropanın "Europian Times" media resursu Xocalı qətliamı ilə bağlı məqalə ilə çıxış edib və erməni tərəfinə təşəbbüs irəli sürüb ki, onlar Ruandanın və CAR-ın təcrübəsindən istifadə etməklə "keçici ədalət" modelini qəbul edə bilərlər. SİA xəbər verir ki, adıçəkilən media resursu xəbər portalı olması ilə yanaşı, dünyanın 20 ölkəsində fəaliyyət göstərən və insan hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış avropalı ekspertlər şəbəkəsi ilə işləyir.**

Məqalənin müəllifi, Danimarkadan olan hüquq müdafiəçisi Başi Qureyşi Nelson Mandela tərəfindən Cənubi Afrikada aparteidə son qoymasından və Ruandadakı soyqırımının nəticələri aradan qaldırıldıqdan sonra Həqiqət və Barışıq Komissiyasının təcrübə analizini aparıb. Belə ki, "keçici ədalətlin" tətbiqinin təməl məqamında iki komponent mövcud olub - günahkarın törətdiyi cinayətini publik şəkildə etiraf etməsi və mövzunun münaqişə tərəfləri arasında azad müzakirəsi.

Müəllif hesab edir ki, oktyabrın əvvəlində BMT-nin Cenevrədə keçirilmiş insan haqları üzrə 51-ci sessiyası çərçivəsində "Xocalı: barışıq naminə etiraf et" Koalisiyasının tədbirinin təşkili mövcud istiqamətdə mühüm addım kimi qiymətləndirilməlidir.

Məqalədə qeyd olunur ki, BMT-nin tədbirində çıxış edən Srebrenitsa anaları Assosiasiyasının prezidenti Munirə Subaşiç Xocalıda və Srebrenitsada törədilmiş cinayətlərin forma və motivlərinin bənzər olduqlarını bildirib, eyni zamanda erməni tərəfinə təklif edib ki, qarşı tərəf Xocalıdakı soyqırımı aktını törətdiyini etiraf etməli və qurbanlar qarşısında ictimai üzr istəməlidir. Belə ki, bu həm də münaqişənin vurduğu yaraların aradan qaldırılması istiqamətində hər iki ölkənin vətəndaş cəmiyyətlərinin müvafiq mövzu üzrə açıq dialoquna da şərait yaradacaq. "Yalnız cinayəti etiraf etmək barışığa doğru yolu aça bilər", deyə müəllif yazıb.

***Rövşən***

# Azərbaycan tarixində qızıl hərfli zəfər günü

**2020-ci il 8 noyabr - 30 illik həsrətimizin başa çatdığı tarixi bir gün. Nədir bu həsrət? Bu 30 ilə yaxın bir müddər ərzində mənfur düşmənin təcavüzü nəticəsində doğma el-obasından didərgin düşmüş bizlərin torpaq həsrətidir. Zəfər gününə qədər azərbaycan xalqına daim zülm etmiş, dəfələrlə xalqıma qarşı soyqırımı hadisələri törətmiş məkrli düşmənimiz olan ermənilərin iki əsrdən də çox olan fəaliyyət tarixinin xronologiyasına nəzər salaq.**



*Gülgün Şəfiyeva,*
*Ədliyyə Akademiyasının baş məsləhətçisi*

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı, terror aktı və təcavüz siyasətinin iki əsrdən də çox tarixi vardır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları öz doğma yurdlarından qovmaq, bu ərazilərin hesabına "Böyük Ermənistan" dövləti yaratmaqdır. Bunun nəticəsində xalqımız əsrlər boyu siyasi cəhətdən mükəmməl təşkil edilmiş və artıq dövlət terrorizmi səviyyəsinə qaldırılmış, məkrli və hiyləgər erməni terrorizmi ilə üz-üzə qalmışdır. Əsasını terror üsulları təşkil edən " Armenikan", "Hnçak" və "Daşnaksütyun" kimi erməni partiyaları məhz bu səbəbdən yaradılmışdır. XIX əsrin sonları XX əsrin əvvəllərində bu və ya digər erməni terror təşkilatları tərəfindən Türkiyə və Azərbaycanda on minlərlə günahsız insan qətlə yetirilmişdir. 1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" erməni federativ inqilab partiyasının əsas məqsədi Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan , Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən bu partiya türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun", "Türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdi.

1919-cu ildə "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayında "Nemezis" intiqamçı terror hərəkatına başlamaq haqqında qərar vermişdir. Qərara erməni terrorçuları tərəfindən qətlə yetiriləcək Azərbaycanın dövlət xadimlərinin və ziyalılarının adları salınmışdır. XX əsrin 70-80-ci illərində erməni terror təşkilatları tərəfindən dünyanın müxtəlif ölkələrində, əsasən də Türkiyə diplomatlarına qarşı 200-dək terror aktı törədilmişdir.

XIX əsrin əvvəllərində Qarabağa və Zəngəzura İrandan və Osmanlı İmperiyasından köçürülmüş erməni ailələrinin yerləşdirilməsi ermənilərin bu torpaqlara olan iştahlarını daha da artırdı. Hələ XVIII əsrin ilk onilliklərində I Pyotr Bakını işğal etdikdən sonra burada Rusiya üçün sosial baza yaratmaq, cənub sərhədlərində güclü müsəlman və türk ölkəsinin formalaşmasının qarşısını almaq məqsədilə, erməniləri həmin ərazilərdə yerləşdirməyə qərar vermişdi. Lakin bu planlar yalnız XIX əsrin birinci yarısından reallaşmağa başladı. Ermənilərin xalqımıza qarşı soyqırımı tarixi və ərazi iddiaları onların Azərbaycan ərazisində məskunlaşdırıldığı dövrdən başladı. Erməni millətçiləri Rusiyaya arxalanaraq XX əsrin əvvəllərində azərbaycanlılara qarşı dəfələrlə, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə kütləvi soyqırımı törətmişlər. Bu illər ərzində ermənilər Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda azərbaycanlıları məhv etmiş, dəhşətli cinayətlər törətmişdilər. Həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində 75 kənd tamamilə dağıdılmışdır. 1905-1918-ci illərdə erməni hərbi birləşmələri Qafqazın müxtəlif bölgələrində qətllər, qırğınlar törətmək istiqamətində fəallaşmağa başladılar.

1918-1920-ci illərdə Ermənistanın daşnak hökuməti "türksüz Ermənistan" siyasətini dövlət siyasəti səviyyəsinə qaldırmışdır ki, bu da Azərbaycana məxsus yüzlərlə kəndlərin dağıdılması, əhalinin məhv edilməsi, onların zorla ölüm təhdidi altında doğma yurdlarından qovulması ilə nəticələnmişdir. 1948-1953-cü illərdə soydaşlarımız Ermənistan ərazisindəki ata-baba yurdlarından deportasiya edildilər.

Ermənilərin Azərbaycan xalqına qarşı növbəti ərazi iddiaları və azərbaycanlıların Ermənistan ərazilərindən etnik təmizlənməsi siyasəti 1988-ci ildən başlandı. Bu illərdə Ermənistan ərazisindən 250 mindən artıq soydaşımız qovulmuş 217 nəfər azərbaycanlı ermənilər tərəfindən öldürülmüşdür. Azərbaycanlılar Ermənistan ərazisindən döyülərək, təhqir olunaraq zorla qovulur, getmək istəməyənlər qətlə yetirilirdi. O zamanlar öz ev-eşiklərindən didərgin salınmış soydaşlarımız Azərbaycanın hər bir bölgəsinə qaçqın kimi gəlirdilər. Dədə-baba yurdlarından qovulmuş və yaxınlarını itirmiş bu insanlar erməni millətçilərinin hərəkətlərindən hiddətlənərək onlara qarşı narazılıqlarını bildirirdilər. 1988-ci ilin fevralında Sumqayıt şəhərində yaşayan ermənilər bundan istifadə edərək vaxt itirmədən öz hiyləgər niyyətlərini planlı surətdə həyata keçirməyə nail oldular. Onlar bir-birini müxtəlif şəkildə qətlə yetirir və bu cinayəti çox ustalıqla azərbaycanlıların üzərinə atır, özlərini yazıq, məzlum kimi göstərirdilər.

Bütün bunlar məkrli, davakar ermənilərin xalqımıza qarşı düşünülmüş plan əsasında həyata keçirdiyi siyasətin nəticəsidir. Məhz bu mənfur siyasət səbəbindən Azərbaycan torpaqları əsrlər boyu düşmənin təcavüzünə məruz qalıb. XX əsrin 80-ci illərinin sonunda erməni millətçiləri Azərbaycana qarşı geniş miqyaslı hərbi əməliyyatlara başladılar və nəticədə 20 faiz torpaqlarımız erməni qəsbkarları tərəfindən işğal edildi. Əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı törədildi. Xocalı soyqırımı erməni millətçilərinin 1918-ci ilin 31 mart tarixində xalqımıza qarşı törətdikləri soyqırımın davamı idi. Düşmənin Xocalıda soyqırımı aktını həyata keçirmək ssenarisi 1992-ci ilin fevral ayının 25-dən-26-na keçən gecə baş verdi. Həmin gecə Ermənistan silahlı birləşmələri havadarlarının köməyi ilə Xocalı şəhərini zəbt edərək xalqımıza qarşı insanlığa sığmayan soyqırımı törətdilər. Xocalı faciəsi və Azərbaycan ərazilərinə qarşı genişmiqyaslı müharibə bu " yazıq" ların artıq nəyə qadir olduqlarını göstərdi. Xocalı faciəsinin ardınca yeddi rayon erməni qəsbkarları tərəfindən işğal edildi. Şəhər və rayonların mərkəzi 1993-cü ilin oktyabrına kimi tamamilə ələ keçirildi. Ağdam və Fizulinin Azərbaycanın nəzarətində olan kəndlərini düşmən işqalından qorumaq üçün əsgərlərimiz və Azərbaycanın mərd oğulları döyüşə davam etdilər. Lakin havadarları tərəfindən yaxşı silahlanmış düşmən gülləsinə tuş gələn oğullarımız şəhid olurdu. Ümummilli Lider Heydər Əliyev artıq şəhidlərimiz olmasın, analar, bacılar gözü yaşlı qalmasın deyə 1994-cü ilin aprel ayında düşmənlə atəşkəs müqaviləsi bağladı. Torpaq həsrəti o vaxtdan başladı və 30 ilə yaxın bir müddətdə torpaqlarımız düşmən əsarətində qaldı. Lakin bu müddət ərzində də azğın düşmən sakit dayanmır, işğal edilmiş ərazilərimizdən bizim digər ərazilərimizi atəşə tuturdular.

Bütün bu olanlara rəğmən Azərbaycan rəhbərliyi buna səbrlə dözür və münaqişənin sülh yolu ilə həll edilməsinə çalışırdı. Ermənistanın xarici havadarları sayəsində, münaqişə dondurulmuş və Azərbaycana status-kvonu qəbul etdirmək üçün yaradılmış ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin sülh yolu ilə həll edilməsində maraqlı olmamış , bununla da münaqişənin həllinin hüquqi əsasını təşkil edən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 4 qətnamə və digər beynəlxalq təşkilatların müvafiq qərarları kağız üzərində qalmışdır. Ermənistan tərəfi 30 ilə yaxın müddət ərzində beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymadan daim ordumuzun mövqelərini atəş altında saxlamışdır. Bununla kifayətlənməyən mənfur düşmən 2020-ci ilin iyul ayından başlayaraq, dövlət sərhəddi və təmas xətti boyu hərbi təxribatlar törədərək içərisində çox sayda azyaşlı da olmaqla mülki əhalinin ölümünə səbəb oldu.

2020-ci ilin sentyabr ayının 27-də hücuma keçən işğalçı erməni ordusuna cavab olaraq, özünə güvənən Azərbaycan Ordusunun əkshücumu başladı və nəticədə sürətlə irəliləyərək ərazilərimizin çox hissəsini azad etdilər.Ermənistan ordusunun genişmiqyaslı hücumu nəticəsində Vətən müharibəsinin ilk günlərindən cəbhədən gələn şəhid xəbərləri üzücü olsa da, Ordumuzun qələbə xəbərləri qürurverici idi. Müzəffər Ordumuz düşmənin xeyli sayda canlı qüvvəsini, hərbi texnikasını, artilleriya və zenit qurğularını, S-300 zenit raket sistemini məhv etdi. Qalib Ordumuzun şücaəti sayəsində oktyabr ayının 3-də Tərtərin Suqovuşan kəndi, 4-də Cəbrayıl şəhəri, 9-da Xocavəndin Hadrut qəsəbəsi azad edildi. 11 oktyabr gecə saatlarında Gəncə şəhəri raket atəşinə məruz qaldı. Tarix və mədəniyyət mərkəzi olan şəhərdə üç yaşayış binası dağıdıldı, içərisində uşaqlar da olmaqla bir neçə mülki şəxs həlak oldu. Düşmənin hər bir həmləsinə cavab olaraq , öz döyüş missiyasını ölümün gözünə dik baxaraq şərəflə yerinə yetirən əsgərlərimiz düşmənə ağır zərbələr endirərək oktyabr ayının 20-də Zəngilan, 25-də Qubadlı, noyabr ayının 8-də Şuşa şəhərini işğalçılardan azad etdi.

Müzəffər Ordumuz işğalçıların 30 il ərzində qurduqları istehkamları məhv etdi. 44 günlük Vətən Müharibəsi dövründə xalqımız Ali Baş Komandanın və Müzəffər Ordumuz sayəsində hər gün qələbə sevincini yaşadı. Ali Baş Komandanın Dəmir Yumruğu Ermənistan tərəfə 2020-ci il 10 noyabr tarixində kapitulyasiya aktına imza etdirdi və işğal edilmiş digər ərazilərimizdən qoşunlarını çıxartmağa məcbur etdi. Döyüş meydanında əldə edilən qələbələr siyasi meydanda Azərbaycana öz sözünü deməyə əsas verdi və noyabr ayının 20-də Ağdam, 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın rayonu bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edildi. Bununla da ölkə başçısı İlham Əliyevin apardığı çoxsahəli siyasət və müasir silahlarla təchiz edilmiş, yenilməz bir gücə sahib olan Müzəffər Ordumuz sayəsində 30 illik münaqişəyə son qoyuldu.

Ölkə Prezidenti 44 günlük Vətən Müharibəsinin yekunu olaraq 8 noyabr tarixini Zəfər Günü elan etdi və bununla əlaqədar 2020-ci il 3 dekabr tarixində Sərəncam imzaladı. I Qarabağ Müharibəsi dövründə torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan və 44 günlük Vətən Müharibəsində qələbəmizin qazanılmasında payı olan şəhidlərimiz, ruhunuz qarşısında baş əyir sizinlə qürur duyuram. Hər iki savaşımızda qazi olan oğullar, müharibə iştirakçıları, zəfərinizlə öyünün, var olun! Doğma Yurdum, hər bir addımında zəfərlərin bol olsun, xalqınla hər zaman var olasan torpağının hər parçası, bir qarışı düşmən əsarətində qalmasın, xalqın bir daha bəlalara tuş gəlməsin, tarixinə zəfər dolu günlər yazılsın.



# “Persona non grata” əməliyyatı

*Yaxud Zatulinə və Simonyana vurulan "xəyanətkar" damğası*

**“Bəyin oğurlanması” filmində bir hissə var, bəyi oğurlayan kinoçəkəndərdən tələblərinin nə olduğunu soruşanda bildirirlər ki, ”icazə verin toyu kinoya çəkək”. Zatulinin Ermənistan və ermənilər üçün etdikləri filməbənzər hadisələrin də son hissəsi qalırdı, o da Duma sədrinin müavininin əməllərini kinoya çəkmək, onun artistlik işinə qiymət vermək. İnsafən, Zatulin rolunun öhdəsindən ”məharətlə” gəlirdi. Amma, nankor ermənilər ”uçitel” Konstantinə son nominasiyanı çox gördülər, üstəlik onun neçə illik əməyini bir hərəkətlə yerə vurdular**

Guya Zatulin erməniləri tanımırmış, ona dönük çıxacaqlarını bilmirmiş. Rusiya Dövlət Dumasının deputatı hələ də Ermənistan Respublikasına girişinə qadağa qoyulmasının səbəblərini anlamaqda çətinlik çəkir. Necə ola bilər ki, gecə-gündüz Ermənistanı və erməniləri haqsız olduqları halda ”haqlı”kimi cəmiyyətə sırıyasan, haqlı Azərbaycanı isə haqsız çıxarasan, sonunda səni Ermənistanda ”arzuolunmaz şəxs”, beynəlxalq dillə desək ”persona non grata” elan edələr. Zatulinə od qoyan da bu yanaşmadır. Rusiya Dövlət Dumasının sədr müavini ermənilər üçün nələri etməyib ki. Zatulinin yaratdığı ”Lazarev klubu” oktyabrın 28-də İrəvanda çoxlu sayda ekspert, siyasətçi, analitik və jurnalisti bir araya gətirəcək ”Ermənistan-Rusiya münasibətlərinin tarixi keçmişi və bu günü” mövzusunda toplantı keçirməyi planlaşdırırdı. Yeni çağırışlar, ictimai diplomatiyanın yeni formatı qismində təqdim edən bu klubun əsas təşəbbüskarlarından və təşkilatçılarından biri də Konstantin Zatulindir. Hələ 2018-ci ildə bu klubun təşkilatçıları tərəfindən Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələrinin iclasa dəvət olunması, həmçinin iclas zamanı K.Zatulinin özü, eləcə də Rusiya XİN-in Veteranlar Şurasının keçmiş sədri, fövqəladə və səlahiyyətli səfir ranqı olan Vladimir Kazimirov və digər şəxslər tərəfindən səsləndirilən və ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı açıq hücum xarakteri daşıyan fikirlər Azərbaycan və Rusiya arasında mövcud olan yüksək səviyyəli münasibətlərə xələl gətirmək məqsədi güdürdü. Bəli, bu, həmin Zatulindir.



Rusiyalı tanınmış hərbi ekspert, ”Mülki müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko İrəvanın Zatulinə Ermənistana giriş qadağası qoymasına reaksiya verib, ”30 il erməni maraqlarına xidmət etmək - sonra pişik kimi zibil qabına atılmaq...”.

Ermənistan hakimiyyəti Zatulin və Rusiya I kanalının rəhbəri Marqarita Simonyanın da ölkəyə girişinə qadağa qoyub. Paşinyan komandası Zatulinə və Simonyana bildirib ki, onların bəyanatları Ermənistana zərər vurur. Belə ki, Zatulinin bundan sonra erməni maraqlarından danışması belə ciddi qəbul olunmayacaq, analoji hal Simonyana da aiddir.

Buradan belə bir nəticəyə gəlmək olar ki, Ermənistan Rusiya Dövlət Dumasının və mediasının ciddi gücündən, dəstəyindən imtina etdi. Bəli, Paşinyan bu addımı ilə siyasi oriyentasiyasının Qərbə meylli olduğunu təsdiq edir. Məntiqi sual yaranır, niyə Zatulin və Simonyan? Cavab da qəliz deyil, Zatulin, xüsusilə Köçəryan-Sərkisyan komandası ilə yaxındır. Simonyanın rəhbərlik etdiyi media resursları isə Ermənistanın maraqlarını müdafiə etsə də, siyasi hakimiyyətə qarşıdır və Nikolun rəqibləri üçün platforma rolunu oynayır. Paşinyan Rusiyanın maraqlarına bu qədər qarşı çıxdığı vaxt adekvat addımlarla üzləşəcəyini və bu addımlardan birinin də onun hakimiyyətdən devrilməsi ola biləcəyi istisna etmir. Buna görə də ilkin olaraq Kremlin emmisarlarını neytrallaşdırır.

Ermənistan parlamentinin sədri Alen Simonyan Rusiya-Ermənistan ”Lazarev Klubu”nun beşinci iclasında iştirakdan imtina edib. Erməni spiker Simonyan Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinə ünvanladığı məktubda bunu Səmərqənddə keçiriləcək MDB PPA Şurasının növbəti iclasında iştirak edəcəyi ilə izah edib. Zatulinin özü müsahibəsində Ermənistana girişin gözlənilmədən qadağan edilməsini təhqir adlandırıb. O, Ermənistan hakimiyyətinin qərarının onun ermənipərəst fəaliyyətinə təsir etməyəcəyini əmin edib, Ermənistan hakimiyyətinin Qarabağ ermənilərinə qarşı hərəkətlərini xəyanət adlandırıb.

Ermənistan Xarici İşlər Nazirliyi Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası üzrə komitəsi sədrinin birinci müavininin ölkəyə girişinə qadağa qoyulması barədə məlumatı olmadığını bildirib. Əvəzində isə Zatulin bildirib ki, respublika rəhbərliyinin onun fikrincə, ”Qərbin maraqlarına” yönəlmiş siyasətindən narahatdır.

”Nə üçün imkan verməliyik ki, xarici ölkə vətəndaşı, bir məmur da olsun, daxili işlərimizə qarışsın? Əgər başqa ölkədən olan siyasətçi daxili siyasi həyatımıza qarışıb, baş nazirin istefaya getməsi ilə bağlı bəyanatlar verirsə, hesab edirəm ki, belə bir addım gözlənilən və məqsədəuyğun idi”. Bunu oktyabrın 25-də jurnalistlərə müsahibəsində Ermənistanın hakim ”Mülki müqavilə” partiyasından olan deputat, Ermənistanın baş naziri Nikol Paşinyanın qudası Qraçya Akopyan Konstantin Zatulinin birinci seçkilərə qadağa qoyulması qərarını şərh edərkən deyib.

Ermənistanın hazırkı hakimiyyəti Bakı və Ankaranın maraqlarından çıxış edərək anti-erməni və anti-Artsax siyasətini davam etdirir, bu barədə isə ”Ermənistan” bloku bildirib. Paşinyan komandasından Zatulinə bildirilib ki, ”onun bəyanatları Ermənistana zərər vurur”, beləliklə, rusiyalı deputatın bundan sonra erməni maraqlarından danışması belə ciddi qəbul olunmayacaq, analoji hal Simonyana da aiddir.

Bundan əvvəl ”Rossiya 1” telekanalının efirində erməni əsilli rusiyalı jurnalist Marqarita Simonyan öz bəyanatları ilə dəfələrlə Ermənistan hakimiyyətini tənqid edib. Belə ki, 2020-ci ilin yayında Qarabağda başlayan yeni müharibə fonunda Simonyan Ermənistan hakimiyyətinə müraciət yazıb: ”Rusiyadan uzun illər aldığınız yardımlara cavab olaraq Krımı tanımadınız. Çünki bu, Ermənistanın daxili işidir. Siz ölkəni anti-Rusiya QHT-ləri ilə doldurmusunuz, onlar sizin ərazinizdəki gənclərə Rusiyada hökuməti necə devirməyi öyrədirlər. Siz Qafqazda anti-Rusiya qüvvələri üçün tramplin oldunuz. Nəticədə, bütün etdiklərinizdən sonra Rusiyanın sizə tüpürməyə və incitməyə bütün mənəvi haqqı var. Qərbə inanmaqdan, ümid etməkdən öncə, bu Qərbə tam olaraq qul olan ölkələrə nəzər salın. Götürək elə mənim də vətənim sayıla biləcək Ermənistanı. Ermənistan lideri sayılan Paşinyanı mənim burda tənqin etmək fikrim yoxdur. O, Putinlə 100 dəfə də görüşsə də, mənim ona qarşı fikirlərim dəyişməyəcək. Mənim fikrimcə, o, erməni deyil. Baxın, Ermənistanda hazırda nələr baş verir - orta məktəblərin ibtidai siniflərində ”seksual orientasiya” dərsləri... Mən uşaqlıqda ”seks” sözünü İrəvanda desəydim, məni elə vurardılar ki... Bu prosseslər ermənilərin mentalitetini dəyişməyə yönəlib. Geyparadlar, LQBT-yə Ermənistandan dəstəklər bu prosesin bir qoludur”.

RT-nin baş redaktorunun bu açıqlamalarını RBC telekanalına müsahibəsində şəxsən baş nazir Nikol Paşinyan şərh edib. O qeyd edib ki, Simonyanın Ermənistan-Rusiya münasibətləri ilə bağlı yazısı erməni dairələrində və Ermənistanda kəskin mənfi reaksiyaya səbəb olub və İrəvan bütün iddiaları əsassız hesab edir.

***Vəli VƏLİYEV***

# Ermənistanın suyu quruyacaq - özünü ağıllı aparmazsa!

*Yaxud, ipə-sapa yatmayan rəsmi İrəvan daha hansı üsulla çökdürülə bilər?*

44 günlük Vətən müharibəsinin üzərindən 2 il keçməsinə və silahlı qüvvələri darmadağın edilmiş Ermənistanın rüsvayçı vəziyyətdə kapitulyasiya aktına imza atmasına baxmayaraq, rəsmi İrəvan hələ də məğlubiyyət reallığı ilə barışmadığını çoxsaylı təxribatları ilə nümayiş etdirməkdədir. İstər sərhədlərin delimitasiyasında tələb edilən addımlara getməməsi, istər Qarabağda hələ də qanunsuz erməni silahlılarının qalması, müəyyən olunmamış sərhədlərdə minalama diversiyalarının və s. tipli silahlı təxribatların törədilməsi, eyni zamanda, Naxçıvana birləşəcək Zəngəzur dəhlizinin açılmaması da kifayət qədər bu cür qənaətə gəlməyə zəmin yaradır. Mövcud fakt budur ki, Ermənistan Azərbaycanla uzunmüddətli sülh müqaviləsini imzalamaqdan hər vəchlə boyun qaçırır.

## Ermənistanı sülhə məcbur etmək faktoru qüvvədədir, amma digər yollar da varmı?

Real vəziyyətdə erməni tərəfinin necə deyərlər, yola gətirilməsi üçün bir neçə variantlar bu gün də gündəmdə qalmaqdadır. Daha dəqiq desək, Bakının İrəvanı birdəfəlik dizə gətirməsi sadəcə an məsələsidir və İrəvan da anlamağa məhkumdur bu cür davam edə də bilməz. Beləliklə, hərb yolu ilə Ermənistanı sülhə məcbur etmək faktoru qüvvədədir, amma digər yollar da varmı?



Bu günlərdə aparıcı yerli rusdilli teleqram kanallarının birində informasiyalarla maraqlanarkən Bakı sakini Hüseyn Abbaszadə adlı araşdırmaçının kifayət qədər diqqət çəkən rəyini oxudum. Məlum oldu ki, əslində İrəvanı ipə-sapa yatırmaq üçün daha bir müfəssəl addıma getmək olar. Bu addım mənbələri məhz Azərbaycanda olan və Ermənistana axan çaylarla əlaqəlidir. Hətta belə desək, irəli sürülən təklif erməni tərəfi üçün çox ciddi təhlükələr yarada bilmək imkanındadır. Əlbəttə ki, realizə olunarsa. Beləliklə, su resursları ilə Ermənistanı necə çökdürmək olar? Bayaq da qeyd edildiyi kimi, Azərbaycanın təbii su resursları Ermənistanı təmin edir və ilk növbədə ermənilərin ”Sevan” adlandırdıqları Göyçə gölü məhz Azərbaycanın dağ yamaclarından su ilə təmin olunur.

## Bərgüşadın, Arpaçayın məcraları dəyişərsə...

Müəllif qeyd edir: ”Ermənistan əhalisinin mövcudluğuna təsir edən və Azərbaycandan təmin edilən içməli suyun rolu haqqında danışaq. Bir sirr açım ki, bunu Ermənistanda da yaxşı bilirlər, amma Azərbaycanda bunu bilənlər azdır. Qonşu ölkənin suya tələbatının 80%-i Azərbaycanın su resurslarından asılı vəziyyətdədir və əhəmiyyətli hissəsi Göyçə gölünə axır”. Bərgüşad çayının uzunluğu 178 km uzunluğundadır və mənbəsini Kəlbəcərdən, Murov dağının yüksəkliklərindən götürməklə 59 km Azərbaycan ərazisindən axır, ardınca isə 119 km Ermənistanın ərazisindən keçir. Ermənistan ərazisindən keçən hissəsində Vorotan HES-Kaskad tikilib və balıq təsərrüfatları fəaliyyət göstərir.

## Bərgüşad çayı Ermənistana axmazsa cəmi 6 ay ərzində Göyçə gölü sadəcə quruyan bataqlığa çevrilə bilər

Arpaçay da kifayət qədər strateji məqsəd daşıyan çaylardandır. O, öz mənbəsini Naxçıvandan götürür, 128 km Zəngəzur aşırımından keçməklə 92 km Ermənistanın Vayadzor vilayətinə axır. Arpaçayın üzərində HES və su anbarı tikilib. Orada forel və s. növlərdə balıqlar yetişdirilir. Məhz bu faktlardan sonra məlum olur ki, Ermənistan nəyə görə Kəlbəcərdən və Laçından belə möhkəm yapışırdı və bu rayonları geriyə qaytarmamaq üçün cəhdlər göstərirdi. Təkcə bu çayların Ermənistan ərazisinə axarı dayansa ”Ararat vadisi” deyilən ərazilər qorxunc səhraya çevrilə bilər. Əgər bu gün Ermənistan ”ərik bağları” ilə özünü öyürsə, sabah bu bağlar sadəcə yer üzündən silinə bilər. Hər halda, Ermənistanda bu faktı yaxşı bilirlər, ona görə də öz əhalisinə, vətəndaşlarına bu sirr haqda bir kəlmə də olsun deyilmir. Beləliklə, Bakı çayların məcrasını dəyişdirsə və həmin məcraları öz ərazisi daxilində təmin etsə Ermənistan həm içməli, həm də texniki məqsədli sudan istifadədən məhrum qalacaq.

## Qarabağdakı separatçılar da bunu bilməli və nəticə çıxarmalıdırlar!

Yeri gəlmişkən, Qarabağda da eyni vəziyyətdir. Yəni hələ də qanunsuz silahlı-terror dəstələrini RSK-nın müvəqqəti nəzarət etdiyi ərazilərdə (Xankəndi, Ağdərə, Xocavəndin bir hissəsi, Əsgəran və s.) saxlayan erməni separatçıları çox qısa müddətdə susuz qala bilmək təhlükəsi ilə üzləşəcəklər. Çünki həmin ərazilər suyu Tər-Tər çayının təmin etdiyi Sərsəng su anbarından götürürlər və bu anbar Azərbaycanın nəzarəti altındadır. Çaylar bəşər tarixinin bütün çağlarında insanların səmərəsi üçün axıblar, insanlar əkib-biçiblər, həyatlarını təmin ediblər. Lakin bunu anlamayan Ermənistan ümumiyyətlə, bəşəriyyətə zərər vuran davranışları ilə bu gün də öz ampulasında qalmaqdadır. Və sabah-birigün İrəvan düşə biləcəyi daha ağır vəziyyəti təsəvvürünə gətirməzsə, hər şey baş verə bilər, əlbəttə ki, onun öz zərərinə...

***Rövşən RƏSULOV***

SİYASİ RAKURS+ÖZƏL

# Fars şovinizminin pik həddi son nəfəsdə

## İran təhdidlərinin ayaq açmasında rol alan bütün casus şəbəkələrin ağızları qapadılacaq!

**İddialara görə, yaxın 10 gündə ölkəmizdə İrana məxsus casus şəbəkəsinin darmadağın ediləcəyi gözlənilir. SİA xəbər verir ki, bu haqda AZfront teleqram kanalı yazıb və eyni zamanda, həmin məlumat bir sıra yerli media səhifələrində də yer alıb. İnformasiyaya görə, məhz bu addım Tehranın son vaxtlar Azərbaycana qarşı əsassız ittihamları ilə əlaqələndirilə bilər. Üstəlik bütün bunlara Tehranın Ermənistanla "can-qardaş" xarakterli mesajlarını da əlavə etsək artıq nəyin necə olduğunu çox rahat qaydada müəyyən edə bilərik. Bütövlükdə isə son bir həftə ərzində İranın Azərbaycana qarşı öz təbirincə təhdid mesajları aşağıdakılar hesab olunur:**

- tank və motoatıcı birləşmələrin Azərbaycan ərazisinə daxil olmasının təlimi
- Azərbaycanın suveren ərazisinin - Naxçıvan Muxtar Respublikasının ilhaqı məqsədi altında Tehran rejiminə yaxın olan təbliğatçıların iştirakı ilə media kampaniyası;
- İran rəsmilərinin mövcud Ermənistanın "indiki əraziləri" hesab olunan tarixi Azərbaycan torpaqları üzərindən Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsinin qarşısının alınması planı kontekstində təhdidlərin artırılması. Bu, İran xarici işlər nazirinin ötən həftə İrəvana səfəri və onun iştirakı ilə Azərbaycanla sərhəd yaxınlığında İranın Baş Konsulluğunun açılışı zamanı verdiyi bəyanatlara da aiddir;
- İran İslam Respublikası adlı ölkənin tərkibinə daxil olan, eləcə də öz tarixi torpaqlarında yaşayan etnik azərbaycanlılara qarşı çoxsaylı qurbanlarla müşayiət olunan kütləvi repressiyalar.

Söz yox ki, əgər Tehranın nəzarətində olan media qurumları, habelə onların ölkəmizdəki emissarları, daha dəqiq desək, casusları uzun illərdir anti-Azərbaycan xarakterli fəaliyyət göstərirdilərsə, paralel olaraq erməni maraqlarına xidmət edirlərsə - artıq bütün bunlara birdəfəlik son qoyulmağın da zamanı çatıb! Xüsusilə, Cənubi Qafqazda həssas bir dönəmin olduğu bir zamanda, habelə Azərbaycanın və partnyorlarının regionda sülhün bərqərar olması yönündə apardığı işlər müqabilində İranın məlum mövqe nümayiş etdirməsi ümumiyyətlə sağlam düşüncə təsirini bağışlamır.

### Əgər Tehranın başbilənləri - saxta mollaları və qondarma üləmaları bundan xoflanırlarsa...

Digər yandan, Tehranın gah bu, gah da digər məsələlərlə bağlı Azərbaycana qarşı "qırmızı xətt" tipli "barmaqsilkələmə" bəyanatlarını nəzərə alsaq bunun heç bir siyasi diplomatik dəyərlərə sığmadığını, o cümlədən, əndazənin aşdığını da əminliklə söyləyə bilərik. Azərbaycan müstəqil ölkə olaraq müstəqil siyasət yürüdür, heç kimdən və heç bir siyasi mərkəzlərdən asılı deyil və olmayacaq, həmçinin bu siyasətin təməlində əsla qonşu ölkələrin ərazilərinə qarşı hər hansı bir təhdid yaratmaq marağı da ümumiyyətlə mövcud deyil.

Əgər Tehranın başbilənləri - saxta mollaları və qondarma üləmaları bundan xoflanırlarsa onda daha yaxşı olardı ki, özünün siyasətinə əl gəzdirməli və hətta ölkəmizə qarşı yekə-yekə, hədyan xarakterli bəyanatlar səsləndirən şovinist politoloqlarına, jurnalistlərinə, eyni zamanda, rəsmi şəxslərinə çəki-düzən verməlidir!

Heç kim, heç vaxt deyə bilməz ki, ölkəmizdə bir dinə mənsub olan şəxs digər dinə mənsub olan şəxsə qarşı dözümsüzlük nümayiş etdirib

Daha bir məqam isə Azərbaycanda yaşamalarına, bu ölkənin çörəyini yemələrinə baxmayaraq, İrandakı mollakratiya rejiminin ölkəmizə transfer edilməsini arzulayanlarla bağlıdır. Azərbaycan Respublikası bütün dünya, beynəlxalq aləm tərəfindən dünyəvi





ölkə olaraq tanınır, o cümlədən, Azərbaycan dünyada bütün dinlərin, məzhəblərin bir araya gəldiyi azsaylı tolerant ölkələrindən biridir. Heç kim, heç vaxt deyə bilməz ki, ölkəmizdə bir dinə mənsub olan şəxs digər dinə mənsub olan şəxsə qarşı dözümsüzlük nümayiş etdirib və s.

Lakin teokratik quruluşa malik olan və bu vasitə ilə İslam dini pərdəsi altında müxtəlif kirli işlərlə məşğul olan Tehran rejimi və ona bağlı olan casuslar hər vəchlə ölkəmizdəki quruluşa xələl vurmaq üçün bütün riyakar əməllərə əl atırlar. Söz yox ki, belələrinin qarşısı daha əvvəllər də alınıb, bundan sonra da alınacaq. Ancaq son proseslər göstərdi ki, artıq bundan sonra bütün kartlar açığa çıxıb və dövlətimizin maraqlarına qarşı yarana biləcək təhdidlərin qarşısı daha sərrast addımlarla alınacaq, uğursuzluğa düçar ediləcək.










### Özünüməhvə getməkdənsə öz hüquq və azadlıqlarını tələb edən Cənubi Azərbaycandakı soydaşlarımız öz mübarizə vasitələrini gücləndirirlər

Bu gün İran adlı ölkənin ərazisində 35 milyondan çox soydaşlarımız yaşayır və onların hüquq və azadlıqlarına qarşı hədsiz məhdudiyyətlər qoyulur. Bu barədə dəfələrlə yazılıb və deyilib. Onda Cənubi Azərbaycan ərazilərində yaşayan azərbaycanlıların da öz milli azadlıq hərəkatlarını yaradaraq Cənubi Azərbaycan Cümhuriyyəti elan etmələrinə istər beynəlxalq hüquq, istərsə də digər faktorlar cəhətindən haqları çatır. Söz yox ki, onların bu kimi ali məqsədləri bütün dünya azərbaycanlıları, habelə böyük Türk Dünyası tərəfindən də dəstəklənir. Əgər azərbaycanlılarımız Arazın o tayında fars şovinizminin mollakratiya siyasəti nəticəsində əzilirsə, əgər soydaşlarımız ardıcıl olaraq təhqirlərə, təzyiqlərə, təqiblərə, ölüm hökmlərinə məruz qalırlarsa təbii ki, bütün bunlara qarşı susqun qalmağın özü millət olaraq öz xoşu ilə məhvə getmək anlamını daşıya bilər. Ona görə də özünüməhvə getməkdənsə öz hüquq və azadlıqlarını tələb edən Cənubi Azərbaycandakı soydaşlarımız öz mübarizə vasitələrini gücləndirirlər.

### Milli əqidə, milli ruh, azadlıq, əzəli torpaq uğrundakı mübarizənin qarşısını heç bir qüvvə ala bilməz!

Bütün bunların müqabilində isə İranın bəlli dairələri hər imkanlarında buradakı casus şəbəkələrini genişləndirməyə, "beşinci kolon" adlandırılan emissarlarını təlimatlandırmağa çalışırlar. Lakin bu cəhdlərin özü də necə deyərlər, son nəfəs verməyə daha çox oxşayır. Çünki milli əqidə, milli ruh, azadlıq, əzəli torpaq uğrundakı mübarizənin qarşısını heç bir qüvvə ala bilməz. Dünya Azərbaycan xalqındakı bu ruhu 44 günlük İkinci Qarabağ müharibəsində gördü, şahidi oldu. Yəni fakt budur ki, nəinki Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar, bütün dünyada yaşayan və bayrağımızı uca tutan Azərbaycan xalqı bu dönməz ruha malikdir, o cümlədən, öz haqları uğrunda bayraq qaldıran Cənubi Azərbaycandakı soydaşlarımız da daxil olmaqla!

**Rövşən RƏSULOV**

# “Moskva İrəvanı ağıllandırmaq üçün lazımi addımlar atacaq”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” çərçivəsində hazırlanıb.

**Rusiyalı ekspert: "İrəvanın hərəkətləri üç kresloda oturmaq cəhdi deyil, Rusiyanın düşmənlərinin tərəfinə keçmək üçün açıq cəhddir. Bu, Moskvada böyük hiddətə səbəb olur... Azərbaycanın Moskvanın razılığı ilə qalan əraziləri yenə də özünə qaytarması ehtimalı real ssenaridir"**



Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Rusiya, Azərbaycan və Ermənistan liderlərinin qarşıdan gələn üçtərəfli görüşü ilə bağlı söhbətləri təsdiqləyib. Üçtərəfli danışıqlar Soçidə baş tutacaq. Vladimir Putin oktyabrın 14-də Qazaxıstanın paytaxtı Astanada MDB Dövlət Başçıları Şurasının iclasında azərbaycanlı və erməni həmkarlarına belə bir görüşün keçirilməsini təklif edib. Son zamanlar Cənubi Qafqazda vəziyyət elə inkişaf edir ki, Qərb artıq regionda özünü möhkəmlətmək cəhdlərində qırmızı xətti keçməyə başlayıb. Məlum olduğu kimi, Ermənistan artıq Azərbaycanla sərhədə Aİ-nin müşahidə missiyasının göndərilməsinə nail olub və indi əlavə olaraq ATƏT-in əlavə missiyası göndərməyə can atır. Rəsmi Bakı artıq qeyd edib ki, ATƏT-in missiyası İrəvanın şəxsi birtərəfli istəyindən başqa bir şey ola bilməz və Azərbaycan tərəfi ilə razılaşdırılmadığı üçün heç bir şəkildə qəbul edilə bilməz.

Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov bu fonda Rusiya, Azərbaycan və Ermənistan liderlərinin gözlənilən görüşünü ”Moskva-Baku” portalına təhlil edib. Müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.

***- Yevgeni Aleksandroviç, hazırda Cənubi Qafqazda baş verənləri necə görürsünüz?***

- Avropa İttifaqı, ABŞ, Böyük Britaniya bunu heç gizlətmədən nəinki Ermənistan-Azərbaycan nizamlanmasında vasitəçi olmağa, həm də regionda ciddi və uzun müddət iştirak etməyə çalışır. Qərb Zaqafqaziyada özünün böyük oyununa başlayıb. Xatırlayırıq ki, İkinci Qarabağ Müharibəsi zamanı Qərb dövlətləri son nəticədə vəziyyətin həlli prosesindən kənarda qaldılar, sadəcə olaraq, onların heç nə etməyə vaxtları olmadı, Rusiya isə vəziyyətin əsas vasitəçisi, moderatoru oldu,

müharibənin dayandırılmasına və Rusiya liderinin birbaşa iştirakı ilə Ermənistan-Azərbaycan nizamlanmasına dair bəyanatın imzalanmasına nail oldu. Qərb Rusiyanın bu cür uğurundan son dərəcə narazı idi və bunu birbaşa Moskvaya bildirdi.

Bu gün Rusiya ilə Qərb arasında münaqişə fonunda, Moskvanın Ukraynada həyata keçirdiyi xüsusi hərbi əməliyyat fonunda Qərb dövlətləri Rusiya Federasiyası üçün yeni qeyri-sabitlik ocağı yaratmaq üçün Cənubi Qafqazdan istifadə etmək qərarına gəliblər. Qərb ən fəal səyləri ilə Rusiyanı Ermənistan-Azərbaycan nizamlanmasından çıxarmağa çalışır ki, bu da təbii ki, Rusiyanın milli maraqlarına qətiyyən cavab vermir. Moskva üçün Cənubi Qafqazda sülhə nail olmaq vacibdir, çünki bu, həm də beynəlxalq vəziyyətlə və Moskva üçün yeni təchizat zəncirlərinin formalaşdırılmasının və ümumiyyətlə, regiondakı tərəfdaşları ilə əlaqələrin möhkəmləndirilməsinin vacibliyi ilə bağlıdır.



Qərb Cənubi Qafqazda sülh prosesini pozmaq üçün Ermənistandan alət kimi istifadə edir. İrəvanın bugünkü hərəkətləri hətta üç kresloda oturmaq cəhdi deyil, Rusiya Federasiyasının hazırkı düşmənlərinin tərəfinə keçmək üçün açıq cəhddir. Bu, Moskvada böyük hiddətə səbəb olur. Rusiya isə bu barədə kifayət qədər qəti şəkildə danışmağa başlayır ki, Aİİ və KTMT-də tərəfdaşımız olan və hələ də Rusiya Federasiyasından çox asılı olan Ermənistanın Qərbin təsir zonasına getməsinə imkan verməyəcək.

Ermənistan çox aktiv addımlarla Qərbə doğru irəliləyir və bu, Moskvada sual doğurmaya bilməz. Bu baxımdan Moskva, görünür, Qərbin Zaqafqaziyada fəaliyyətini cilovlamaq və İrəvanı ağıllandırmaq üçün addımlar atacaq.

Paşinyan əvvəllər də Rusiyaya o qədər də sevgi bəsləməyib. Unutmayın ki, o, Ermənistanda hakimiyyətə ABŞ-ın bütün dünyada başlatdığı ”məxməri inqilab”la gəlib. Ermənistanın baş nazirinin komandasının əksəriyyəti Sorosun adamlarıdır, Amerika və Avropa ilə sıx əməkdaşlıq edən insanlardır. İndi xüsusi hərbi əməliyyat başlayandan sonra Paşinyanın Qərbdəki kuratorları, görünür ona deyiblər: seçim et- sən Rusiyanın yanındasan, yoxsa bizimlə. Biz yaqin Rusiyanı indi boğacağıq, sonar sən işsiz qalacaqsan. Paşinyan hələ Rusiyadan tam imtina etməyib, hələ də qorxur ki, Rusiya Qərbə qalib gəlsə, bundan sonra onun üçün daha pis olacaq, amma o, Qərbə doğru getdikcə daha çox addımlar atır. Ermənistan həmişə böyük dövlətlərin əlində marionet olub.

İkinci Qarabağ müharibəsi zamanı Moskvanın vasitəçiliyi ilə o, Rusiya Federasiyası və Azərbaycan liderləri ilə üçtərəfli bəyanat imzalamalı və bununla da öz üzərinə çoxlu sayda öhdəliklər götürməli oldu. Onun seçimi yox idi. Amma tarixin göstərdiyi kimi, erməni siyasəti öhdəliklərini heç vaxt yerinə yetirmir.

Ukraynada xüsusi hərbi əməliyyatın başlamasından sonra İrəvandan Rusiyaya qarşı hücumlar tez-tez baş verir. Avqustda, sonra isə sentyabrda İrəvan Azərbaycanla sərhəddə açıq-saçıq təxribat törədib, KTMT-nin yardımını tələb edibbu strukturun Ermənistana hərbi cəhətdən kömək etməyəcəyini bildiyi halda. Ona görə də paralel olaraq İrəvan BMT-yə, daha sonra isə ATƏT-ə müraciət etməyə başladı. Həm də bunu Rusiya üçün belə çətin bir vaxtda etdi. Bütün bunlar İrəvana ictimai rəyi manipulyasiya etmək və Qərb tərəfdaşlarını köməyə çağırmaq imkanı verdi.

Azərbaycan ATƏT-in sərhəd missiyası ilə qətiyyən razı deyil, Rusiya da razı deyil. ATƏT uzun müddətdir ki, son dərəcə mənfi olduğunu sübut edib. Onu maraqlandıran bölgələrdə kəşfiyyat funksiyalarını yerinə yetirir. Rusiya və Azərbaycan üçün bu, artıq açıq-aşkar düşmənçilik edən təşkilatdır. ATƏT missiyasının Cənubi Qafqaza gəlişi isə sırf sabitliyi pozmağa yönəlib. Əminəm ki, ATƏT və Aİ missiyası Ermənistanla Azərbaycan sərhədində peyda olanda istənilən erməni təxribatı avtomatik olaraq ”Ermənistana qarşı Azərbaycan təxribatına” çevriləcək. Mən sizə zəmanət verirəm, bu yüz faizdir. Avropa Azərbaycanı manipulyasiya etməyə- ona təzyiq göstərməyə və eyni zamanda bu gün çox ehtiyacı olan Azərbaycan qazını cəlb etməyə çalışır. Eyni zamanda, biz artıq tez-tez antiazərbaycan bəyanatları, Qərb dövlətləri tərəfindən antiazərbaycan addımlar görürük. Bakı da bunu görür.

Bu gün hesab edirəm ki, biz Rusiyaya və bu gün əməkdaşlığı gücləndirdiyimiz və ümumi gələcək qurduğumuz ölkələrə qarşı Qərbin bu hücumlarına kollektiv şəkildə cavab verməliyik. Moskva ilə Bakının maraqları daha da yaxınlaşıb. Bu gün biz Azərbaycanla əsl dosta çevrilmişik, üstəlik, Qərb regionuna girməkdə maraqlı olmayan Türkiyə ilə də. Ankara güclü oyunçudur, Azərbaycanın təhlükəsizliyinin təminatçısıdır və bu gün Cənubi Qafqazda baş verənlər Türkiyənin də maraqlarına ziyan vurur. O, Rusiya ilə münasibətləri korlamaq və indi əldə etdiyi Rusiya ilə Qərb arasında vasitəçilik imkanını itirmək niyyətində deyil.

Rusiya, Türkiyə, Azərbaycan birlikdə gedəcək və çağırışlara birlikdə cavab verəcək. Əksinə görünə bilər ki, bu gün Cənubi Qafqazda bir qədər özünəməxsus şəkildə mövqe nümayiş etdirən İran da Azərbaycan və Türkiyə ilə eyni qayığa düşür. Rusiya, Türkiyə, Azərbaycan, o cümlədən İran Qərbin regionda görünməsində- Cənubi Qafqazda Avropa maraqlarının sıx şəkildə yeridilməsində maraqlı deyil.

Rusiy Türkiyə ilə olduğu kimi İranla da müxtəlif sahələrdə tərəfdaşlığı gücləndirməyə çox ciddi yanaşır. İran da Türkiyə kimi qlobal miqyasda iqtisadi cəhətdən Rusiyaya yönəlir. Ona görə də Cənubi Qafqazda İran bəzən şıltaqlıq edib nəyisə göstərə bilər, amma sonda bütün region ölkələri onsuz da birgə hərəkət etməli olacaq. Region üçün qəti şəkildə mənfi hərəkətlər İrandan gəlməyəcək.

***- Moskvanın hansı variantları var- axı bu, ikitərəfli qılıncdır- Paşinyan bütün gücü ilə Qərb kartı ilə oynayır, amma Paşinyanın alternativi böyük ehtimalla "Qarabağ"da qisas almaq istəyənlərdir. Amma Ermənistan-Azərbaycan sülh prosesinin nizamlanması üçün bu, dalana dirənmək deməkdir... Bəs Putin sonda Əliyevlə Paşinyan görüşündə nə deyəcək?***

- Moskva ümidini itirmir ki, Paşinyan buna baxmayaraq, üçtərəfli nizamlanma üzrə öhdəliklərini yerinə yetirməyə başlayacaq. Ona görə də indiki kritik məqamda Moskva üçtərəfli görüşlərdə belə uzun fasilədən sonra danışıqlar prosesini davam etdirmək üçün Bakı və İrəvanı dəvət edir. Gələcək hadisələri proqnozlaşdırmaq mənim üçün çətindir, lakin tamamilə aydındır ki, Moskva Ermənistanın NATO-nun bazasına çevrilməsinə imkan verməyəcək. Moskva Ermənistanda yenidən Azərbaycanla qarşıdurmada israr edəcək belə bir liderin hakimiyyətə gəlməsində maraqlı deyil. Çünki hələ də Paşinyanla hansısa formada danışa bilirsənsə, əksinə, ”Qarabağ klanı”ndan qarşıdurma üçün qurulmuş revanşist gəlirsə, bu, Moskvanın özü üçün pisdir. Rusiya Ermənistandakı revanşistlərə kömək etməyəcək, çünki Azərbaycan Rusiyanın müttəfiqidir, onunla münasibətlərimiz yalnız hazırkı beynəlxalq vəziyyət fonunda güclənir.

Eyni zamanda, fikrimcə, Rusiya lideri görüşdə diplomatik hərəkət edəcək və əsas mesaj bu olacaq- üçtərəfli bəyanatları, Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirək. Həm də ona görə ki, Ermənistan Qərblə çox yaxınlaşmasın.

Azərbaycan öz öhdəliklərini yerinə yetirir, Ermənistan isə buna qarşı çıxır, ona görə də görüşdə əsas diqqət İrəvanın razılaşmaların yerinə yetirilməsinə yönəldiləcək. Ancaq bu ”vurğu” eksponent olaraq sərt olmayacaq. Putin Rusiyanın mövqeyini başqa cür başa düşməyənlərə necə çatdırmağı bilir, amma o, rəsmi şəkildə deyəcək ki, siz bizim erməni tərəfdaşlarımız, müttəfiqlərimiz, niyə belə hərəkətlər edirsiniz. Təbii ki, məncə, Azərbaycan da Qərb tərəfdaşlarının regiona gəlişi ilə bağlı daha sərt mövqe nümayiş etdirməli idi. Biz öyrəşmişik ki, Avropa hər zaman aldadır və Azərbaycanda heç bir illüziya olmamalıdır.

Rusiya vəziyyəti sabitləşdirməyə çalışacaq. Bunu ictimaiyyətə göstərməyin vaxtıdır, çünki Qərbin oyunları uzaqlara gedir. Qərb Moskvanı Cənubi Qafqazda əzmək istəyir və bunun üçün bütün vasitələrdən istifadə edəcək. Eyni zamanda, hesab edirəm ki, Ermənistan-Azərbaycan nizamlanması üzrə sülh prosesi dondurulacaq və bunun fonunda Qərb və Ermənistan vəziyyətin sabitliyini pozmaq cəhdlərini davam etdirəcək.

Rusiyasız sülh müqaviləsi imzalanmayacaq. Qərbin və Ermənistanın təxribatlarını dayandırmaq cəhdlərinə qarşı Ermənistan-Azərbaycan nizamlanmasında belə ləng vəziyyət Moskva Ukraynanın hərbi əməliyyatlar teatrında Avropa və ABŞ ilə məsələləri həll etməyənə qədər davam edəcək.

Real ssenarilərdən biri kimi Azərbaycanın Moskvanın razılığı ilə qalan əraziləri yenə də özünə qaytarması ehtimalı var.

***Tərcümə - Elçin Bayramlı***

# Narkomaniya ilə mübarizədə ailənin rolu nədir?



”Narkotik vasitələrin dövriyyəsi ilə bağlı Daxili İşlər orqanları əməliyyat kompleks tədbirlərlə yanaşı həm də narkotik vasitə aludəçilərini və narkotik vasitələrinin dövriyyəsində şübhəli bilinən şəxslərin cinayət işi və tədqiqat işindən gələnən ümumi qənaətlər sırasında ortaya aydın bir mənzərə çıxır ki, hansısa narkotik aludəçisi ilk əvvəl passiv istifadəçisi olanda ən birinci halda onun valideynləri məlumatlı olurlar”. Bu sözləri SİA-ya açıqlamasında Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

Onun sözlərinə görə, bir çox hallarda narkotik vasitələrdən istifadə edən şəxslərin ailələri bu halları çox vaxt gizlədirlər: ”Bu halda artıq həmin narkotik vasitələrdən istifadə edən şəxs artıq evdən oğurluq edir və ailəsindən də pul tələb etməyə başlayırlar. O zamanda ailə artıq həyəcan siqnalı verməyə başlayır ki, bu zaman polisə müraciət olunur. Ümumi görünən mənzərədən ortaya çıxır ki, narkotik vasitələrlə əlaqəli cinayətlər lokal xarakter daşıdığı üçün hər bir vətəndaş öz üzərinə düşəni etməlidir.

Nədən asılıdır bu? Daha çox bununla bağlı onun ailə üzvləri, yaxın qohumlarından kimsə narkotik istifadəçisidirsə və onun hərəkətlərində qeyri-adekvat halları müşaiət edilirsə, evə vaxtında gəlmirsə, əsəbidirsə, ailədə olan ümumi qayda və tələblərə riayət etmirsə, ümumən hərəkətlərində xoşagəlməz hərəkətlər müşayidə edilirsə bununla bağlı adiyyəti qurumlara məlumat etməlidir. Bu məlumatları verməklə ailə birinci növbədə yaxınının gələcəkdə narkotik vasitələrdən istifadəsinin qarşısını ala bilər. Və bütün bunları nəzərə alaraq ailə üzvləri və onun yaxınları düşünməsin ki, mənim övladım və ya yaxınım bu vasitələrdən istifadə etməz. Əgər bu hallar baş verərsə ailə tez bir zamanda adiyyəti qurumlara müraciət etməlidir”.

***Ziya Hikmət oğlu***

# Yaşıl yarpaqlı tərəvəzlər beynin cavanlığını qoruyur



Müəyyən tərəvəzləri ehtiva edən sağlam pəhriz, yaşlandıqca nevroloji sağlamlığı və beyin aktivliyini qorumağa kömək edir. Bu barədə həkim Debora Li ”Express” nəşrinə müsahibəsində bildirib. Mütəxəssis vurğulayıb ki, yaşıl yarpaqlı tərəvəzlər beynin cavanlığını qorumaq üçün çox faydalıdır. Bu tərəvəzlərdən gündə ən azı bir porsiya yemək yaşla əlaqədar idrak qabiliyyətinin zəifləməsini əhəmiyyətli dərəcədə yavaşladır.

”Pəhrizinizə ispanaq və kələm daxil edin - vitaminlər və antioksidantlarla zəngin olan bu tərəvəzlər beyninizi 11 il cavanlaşdıra bilər”, - deyə doktor Li qeyd edib.

”Neurology” jurnalında dərc olunan tədqiqat məlumatları yaşıl yarpaqlı tərəvəzlərin düşüncə proseslərinin sürətinin azalmasına güclü müsbət təsirini təsdiqləyir. Alimlər 58-99 yaşarası 960 könüllü haqqında məlumatları təhlil ediblər. Mütəxəssislər müəyyən ediblər ki, ən çox yarpaqlı göyərti yeyənlərdə koqnitiv funksiyaların geriləmə nisbətlərinin əhəmiyyətli dərəcədə aşağı olduğu müşahidə olunub. Xüsusilə, söhbət ispanaq, kələm, kahı, yarpaq kələmi (kale) kimi tərəvəzlərdən gedir.

Tədqiqatçılar yaşıl yarpaqlı tərəvəzlərin fol turşusu, B-karotin, filloxinonom və karotenoidlərlə (məsələn, lutein) zəngin olduğunu iddia ediblər. Alimlərin sözlərinə görə, karotenoidlərin istifadəsi beynin periventrikulyar ağ maddəsində daha az ciddi dəyişikliklərlə əlaqələndirilir və xüsusilə lutein sinir sisteminin iltihabının qarşısını alır. Beləliklə, bu maddələr sayəsində həm beynin fəaliyyəti yaxşılaşır, həm də degenerativ vəziyyətlərin inkişaf ehtimalı azalır.



# “Ronaldonun dediklərini açıqlasam, klub susmağım üçün 5,7 milyon avro ödəyər”

“Mançester Yunayted”in keçmiş futbolçusu Duayt York klubun hücumçusu Kriştiano Ronaldo ilə söhbətindən danışıb. Qol.az ”Sportlens”ə istinadən xəbər verir ki, o deyib: ”Ronaldo ilə danışarkən o qədər çox məlumat əldə etdim. Onun mənə söylədiyi bəzi şeyləri açıqlasam, məncə, ”Mançester Yunayted” susmaq üçün mənə 5,7 milyon avro ödəyəcək.

Altı ay əvvəl onunla danışdım və məşqdən sonra Ronaldo ilə 30 dəqiqə vaxt keçirdim. Mən istəkli və klubda qalmaq istəyən bir futbolçu gördüm. Sonra yayda hər şey kəskinləşdi”.

Xatırladaq ki, daha əvvəl Ronaldo Premyer Liqanın 12-ci turunda ”Tottenhem”lə matçda (2:0) meydana çıxmaqdan imtina edib. Klub 37 yaşlı futbolçu iki həftəlik əmək haqqı məbləğində cərimələyib. Bu, 887 min avro deməkdir. Həmçinin Ronaldo İngiltərə Premyer Liqasının 13-cü turunun ”Çelsi” ilə matçı üçün heyətdən kənarlaşdırılıb. Sonra futbolçu baş məşqçi Erik Ten Haqla fikir ayrılıqlarını aradan qaldırdıqdan sonra əsas komanda ilə məşqlərə qayıtmışdı.



# Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə qərar verib. SİA xəbər verir ki, bununla bağlı qərarı Baş nazir Əli Əsədov imzalayıb.

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 yanvar saat 06:00-dək uzadılıb.

# BAŞSAĞLIĞI

SƏS Media Qrupu adından Bəhruz Quliyev ”SƏS” qəzetinin əməkdaşı Rövşən Rəsulova əmisi

**Rəhim Rəsulovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**